www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 17 noyabr 2016-cı il Cümə axşamı № 255 (6576) Qiyməti 60 qəpik

**Xəbər**

## İsmayıllıda dəhşətli avtoqəza - 2 ölü

yazısı səh.2-də

**Gündəm**

### Türkiyə ilə vahid ordu - niyə də olmasın?



İrəvan-Moskva hərbi əməkdaşlığının yeni formata keçməsi iki qardaş ölkəni analoji addım atmaq zorunda qoyur...

yazısı səh.11-də

### Şəhid olan hərbçimiz torpağa tapşırıldı

yazısı səh.2-də

### "Rusiyanın Ermənistana hərbi dəstəyi məsələsi BMT-də müzakirəyə çıxarılmalıdır"

yazısı səh.8-də

### Azərbaycana gələn turistlər ASAN Xidmətdən viza ala biləcəklər

yazısı səh.13-də

### Maliyyə sisteminin "zibilyığan balıqları"

yazısı səh.6-da

### Akif Çovdarov və ailə üzvləri son 2 ildə xaricdə yarım milyona yaxın pul xərcləyiblər

yazısı səh.3-də

### "Kremlin yerində otuzdurulması prosesi davam edəcək"

yazısı səh.10-da

### Gəncə Avtomobil Zavodu və bir neçə səhiyyə ocağı özəlləşdirilir

yazısı səh.6-da

### "Azərişıq" işləməyən müəssisəyə cərimə yazıb

yazısı səh.3-də

### Baş prokuror Zakir Qaralovun təklifi sosial şəbəkələrdə saxta profillərin qarşısını alacaqmı?

yazısı səh.6-da

### Xəzərdə və digər su hövzələrində balıq niyə yoxa çıxıb?

yazısı səh.15-də

## Bakının "əlinə" işləyən ilginc gəlişmə

# RUSİYA RƏSMƏN İŞĞALÇI KİMİ TANINDI - AZƏRBAYCAN ÜÇÜN MÜHÜM PRESEDENT

Bakı bu insidentdən yararlanıb Qarabağ problemini təzədən BMT gündəliyinə gətirə bilər; Ermənistanla birgə bu dəfə onun havadarının da təcavüzkar qismində tanınması ölkəmizin mövqeyini və manevr imkanlarını gücləndirərdi...

yazısı səh.7-də




## Həbsdəki müavini Əli Abbasovun "kəlləsini" istəyir - dostları düşmən edən səbəblər

Sabiq nazir 6,8 milyon manat ödəməklə canını qurtarmaq istəyir, amma Vidadi Zeynalov onu rahat buraxmayacaq; Əli Abbasov niyə məhkəmədə ifadə verməkdən yayınıb?; o, ayda 300 min manat xərcləyirmiş...

yazısı səh.5-də



### ABŞ-da prezident seçkiləri: niyə Tramp? - Ərəstun Oruclu Vaşinqtondan yazır

yazısı səh. 9 və 10-da



*Fazil Mustafa:*

### "Gəlir deklarasiyası haqqında" Qanunun tətbiqi uzun illərdir bilərəkdən dayandırılıb"

yazısı səh.4-də



*Cavanşir Quliyev:*

### "Hər an ayaqqabımı geyinib, aeroporta qaçıb, təyyarəyə minib gəlməyə hazıram"

yazısı səh.12-də



## Prezident ipəkçiliyin və fındıqçılığın inkişafına 1,463 milyon manat ayırdı

**Prezidenti İlham Əliyev ipəkçiliyin və fındıqçılığın inkişafına dövlət dəstəyinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb. APA-nın məlumatına görə, barama toxumlarının, tut (çəkil) tinglərinin və fındıq pöhrələrinin tədarük edilməsi və məhsul istehsalçılarına əvəzsiz verilməsi məqsədi ilə Kənd Təsərrüfatı Nazirliyinə ayrılmış vəsait hesabına 1,463 milyon manat, o cümlədən barama toxumlarının alınmasına 163 min manat, tut tinglərinin alınmasına 600 min manat, fındıq pöhrələrinin alınmasına 700 min manat ödəniləcək.**

Kənd Təsərrüfatı Nazirliyi tədarük olunan barama toxumlarının, tut (çəkil) tinglərinin və fındıq pöhrələrinin şəhər və rayonların tələbatı nəzərə alınmaqla, məhsul istehsalçılarına əvəzi ödənilmədən paylanılmasını təmin etməli, habelə barama toxumları, tut tingləri və fındıq pöhrələri əvəzi ödənilmədən paylanılan məhsul istehsalçıları, habelə şəhər və rayonların tələbatı barədə məlumatı prezidenti təqdim etməlidir.



## Şair Fikrət Sadıq torpağa tapşırıldı

**Noyabrın 16-da Azərbaycan poeziyasının görkəmli nümayəndəsi Fikrət Sadıq 86 yaşında vəfat edib. Onun cənazəsi Yasamaldakı mənzilindən götürülərək Yasamal qəbiristanlığında dəfn olunub.**

"O, mənim ailəmdən, həyatımdan getdi..." Bu sözləri xalq şairi Fikrət Qoca qələm dostunun vəfatı ilə bağlı "Yeni Müsavat"a təəssüratlarını bölüşərkən deyib. Fikrət Qoca uzun illər dostluq etdiyi həmkarının ölümünün onun üçün ağır itki olduğunu bildirib:

"Mən Fikrət Sadıqı gənclik illərindən tanıyıram. Dost olmuşuq, həmişə bir yerdə olmuşuq və buna çalışmışıq. İlk şeirlərimiz eyni vaxtda çap olunub. Bir dərnəyə getmişik, o vaxt M.Ə.Sabir adına kitabxanaya yığışırdıq. O vaxt Aqşin Babayev var idi, o, Fikrətin qohumu idi. Fikrət onun bacısı ilə evlənmişdi... Şamaxı balası idi, zarafatı çox sevərdi, çox hazırcavab idi. Şeirlərində də o hazırcavablıq var idi. Sözlə çox oynayırdı. Şairin də yoğurduğu xəmir sözdür. Geniş ürəkli dost idi. Gözəl istedadlı şair idi. Bir az öncə tabutunun yanından gəlmişəm... Fikrət Sadıq mənim ailəmdən, həyatımdan getdi. Allah ona rəhmət eləsin. Bu, mənim üçün çox ağır itkidir".

Fikrət Sadıq 1930-cu il mayın 30-da Şamaxıda anadan olub. Ədəbi fəaliyyətə tələbəlik illərində universitet nəşriyyatının buraxdığı "Gənclik nəğmələri" almanaxında dərc etdiriyi "Artist" və "Ana əli" şeirləri ilə başlayıb. Poetik yaradıcılığında bədii tərcüməyə də meyl edir. "Yumaq top", "Bir parça vətən", "Oğul" pyesləri, "Xırdaca gəlin", "Daş balkon", "İlk məhəbbət haqqında daha bir hekayə" və s. onun qələminin bəhrəsidir (1974-1983). Şamaxıda kənd müəllimi, rayon qəzeti redaksiyasında ədəbi işçi, ADU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasında baş laborant, Azərbaycan Sovet Ensiklopediyasının Baş redaksiyasında elmi redaktor, şöbə müdiri, C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında elmi-kütləvi və sənədli filmlər birliyi idarəsində baş redaktor, Azərbaycan Yazıçılar İttifaqında bədii ədəbiyyatın təbliği bürosunun direktoru olub.

O, yazıçı, ssenarist Orxan Fikrətoğlunun atasıdır.

Allah rəhmət eləsin!

❑ Xalidə GƏRAY


### "Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalları rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.


# Qubad İbadoğlu dolların bahalaşmasının səbəblərini açıqladı



**Manatın məzənnəsi dollara nisbətən hər keçən gün daha da aşağı düşür. Dollar manata nisbətən artıq rekord həddə bahalaşıb. 1 dollar 1 manat 70 qəpiyi keçib. Artıq banklar puldəyişməni dayandırıb. Bu da dolların daha da bahalaşacağından xəbər verir.**

Bəzi ekspertlər bildirir ki, ölkədə yeni devalvasiya olacaq.

Manatın məzənnəsinin durmadan aşağı düşməsi və gələcəkdə manatın taleyi barədə iqtisadçı ekspert, ADR hərəkatının sədri Qubad İbadoğlu ölkə.az-a danışıb:

"Artıq üçüncü, dördüncü devalvasiyadan söhbət etməyə dəyməz. Onsuz da hər gün Azərbaycan manatı dünyanın aparıcı valyutaları ilə müqayisədə dəyərini itirir. Manatın dəyərini itirməsi özü devalvasiya deməkdir. Sadəcə, bizim əvvəlki dövrlərdə gözlədiyimiz devalvasiyaya inanmıram ki, Mərkəzi Bank getsin. Çünki bu, iqtisadiyyata bir növ şok təsiri bağışlayır. Birinci və ikinci devalvasiya baş verəndən sonra üçüncü və dördüncüyə lüzum qalmır.

Manatın yaxın zamanda yenidən ucuzlaşması gözlənilən bir şeydir. Proqnoz vermişdim ki, bu ilin sonu Azərbaycan manatı üçün ağır olacaq, çünki ilin sonunda xarici öhdəlikləri yerinə yetirmək istiqamətində valyutaya tələbat artır. O baxımdan, tələbatın artması son nəticədə manatın devalvasiya etməsinə gətirib çıxardacaq.

Mərkəzi Bank valyutanın tənzimlənməsinin yeni mexanizmini tətbiq edir. Bu üzən məzənnə rejimi deyil, tənzimlənən məzənnə rejimidir. İndiki halda burada tələb və təklif rol oynamağa başlayıb. Tələb və təklifi biz manatın məzənnəsində hiss edə bilirik.

Proqnozlarıma görə, ilin sonuna kimi orta ssenaridə 1 dollar = 1 manat 80 qəpik səviyyəsində, yaxşı ssenaridə 1 dollar = 1 manat 75 qəpik səviyyəsində, pis ssenaridə isə manatın məzənnəsi 1 dollar = 1 manat 90 qəpik və 2 manat ola bilər. Bu baxımdan, bir neçə ssenaridə manat öz məzənnəsini itirə bilər. Bu ssenarilərdən hansınınsa reallaşması Mərkəzi Bankın müdaxiləsindən, fəaliyyətindən, tənzimləmə vasitələrindən asılıdır".

Manatın dəyərdən düşməsindən çıxış yoluna gəldikdə isə iqtisadçı ekspert bildirdi ki, Mərkəzi Bankın edə biləcəyi çox şey yoxdur:

"Manatın məzənnəsinin sabitləşməsi ölkədə iqtisadiyyatın durumundan asılıdır. Hazırda Azərbaycan iqtisadiyyatı tənəzzüldədir. Manatın məzənnəsinin aşağı düşməsinin qarşısını almaq üçün iqtisadi tənəzzülün qarşısını almaq lazımdır. Çalışmaq lazımdır ki, ölkədən xaricə daha az valyuta getsin. Çalışmaq lazımdır ki, idxal aşağı düşsün, idxalı əvəz edən yerli istehsal formalaşsın".

# MDB ölkələri təhlükəsizlik şuraları katiblərinin toplantısı keçirilib

**Moskva şəhərində MDB-yə üzv ölkələrin təhlükəsizlik şuraları katiblərinin dördüncü iclası keçirilib. APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, iclasda MDB ölkələrində sabitlik və təhlükəsizliyə təhdidlər fonunda regional qarşılıqlı fəaliyyətə dair aktual məsələlər müzakirə olunub.**



Qeyri-qanuni miqrasiyaya qarşı fəaliyyət, milli təhlükəsizliyin təmin olunması maraqları baxımından miqrasiya qanunvericiliyinin gələcəkdə təkmilləşdirilməsi məsələsinə baxılıb. Beynəlxalq terrorçu və ekstremist təşkilatların, transmilli cinayətkar qruplaşmaların aktiv fəaliyyət göstərdiyi miqrasiya kanalları üzərində nəzarətin effektivliyinin yüksəldilməsinin vacibliyi qeyd olunub.

İclasda antiterror əməkdaşlığı ilə bağlı müzakirə aparılıb. Rusiya Hərbi Kosmik Qüvvələrinin Suriyadakı fəaliyyəti haqda informasiya dinlənilib. Beynəlxalq informasiya təhlükəsizliyinin təmin edilməsi məsələsinə toxunulub. İştirakçılar informasiya-kommunikasiya texnologiyalarından istisnasız olaraq ancaq dinc məqsədlərlə istifadənin tərəfdarı olduqlarını bildiriblər.

Toplantıda MDB İcraiyyə Komitəsinin baş katibi Sergey Lebedev, Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev və MDB ölkələrinin təhlükəsizlik şuralarının katibləri iştirak ediblər. Azərbaycanı Təhlükəsizlik Şurasının katibi, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, onun müavini, Xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov və PA-nın Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov təmsil ediblər.

## ABŞ İrana qarşı sanksiyaları daha 10 il uzadır

**ABŞ Nümayəndələr Palatası İrana qarşı sanksiyaların daha 10 il müddətinə uzadılmasına səs verib. Axar.az xəbər verir ki, Nümayəndələr Palatasının 419 üzvü sanksiyaların uzadılmasını dəstəkləyib.**

Cəmi bir nəfər sənədin əleyhinə çıxış edib.

Qanun layihəsi təsdiqlənməsi üçün Konqresin yuxarı palatasına - Senata təqdim ediləcək.

Yeni layihə dekabrın 31-də qüvvədən düşəcək hazırkı qanunla eynidir.



## Şəhidimiz torpağa tapşırıldı

**Azərbaycan Silahlı Qüvvələrinin ermənilərin atəşkəsi pozması nəticəsində şəhid olan hərbi qulluqçusu Məlikov Aqil Qismət oğlu noyabrın 16-da torpağa tapşırılıb.**

APA-nın cənub bürosunun xəbərinə görə, şəhid hərbçi anadan olduğu Masallı rayonunun Böyük Xocavar kəndində dəfn olunub.

1990-cı il təvəllüdlü, müddətdən artıq hərbi xidmət keçən gizir Aqil Qismət oğlu Məlikovun dəfn mərasimində rayon icra hakimiyyətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin əməkdaşları, yerli hüquq-mühafizə orqanlarının rəhbərliyi, rayon ictimaiyyətinin nümayəndələri, hərbçilər iştirak edib.

Yaylım atəşi açılıb, şəhid torpağa tapşırılıb.

Qeyd edək ki, Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçusu Məlikov Aqil Qismət oğlu noyabrın 15-də xidməti vəzifələrini yerinə yetirərkən düşmən tərəfindən açılan atəşdən şəhid olub.

Ermənilərin növbəti təxribatı nəticəsində şəhid olan hərbi qulluqçu müdafiə naziri, general-polkovnik Zakir Həsənovun əmrinə əsasən ölümündən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalla təltif olunub.

## "Mercedes" "NİVA" ilə toqquşdu - 2 ölü, 2 yaralı

**İsmayıllı rayonunda iki nəfərin ölümü, iki nəfərin ağır xəsarəti ilə nəticələnən avtomobil qəzası baş verib.**

ARB Şəki xəbər verir ki, hadisə noyabrın 16-da Bakı-Şamaxı-Yevlax avtomobil yolunun 172-ci kilometrliyində, İsmayıllının Gəraybəyli kəndi ərazisində qeydə alınıb.

Xırdalan şəhər sakini 37 yaşlı Behbudov Rövşən Ələkbər oğluna məxsus 90-LJ-285 dövlət nömrə nişanlı "Mercedes" markalı minik avtomobili qarşı tərəfdən gələn Ağsu rayonu Nemirli kənd sakini, 36 yaşlı Osmanov Anar Tarix oğlunun idarə etdiyi 10-PN-847 dövlət nömrə nişanlı "NİVA" markalı minik avtomobili ilə toqquşub. Hadisə zamanı hər iki avtomobilin sürücüsü ağır bədən xəsarətləri ilə Ağsu rayon Mərkəzi Xəstəxanasına yerləşdirilib.

Avtomobillərdəki sərnişinlər, Ağsu rayon sakini, 49 yaşlı Məmmədov Əhməd Heybət oğlu və Oğuz rayon sakini, 58 yaşlı Əliyev Rasim Əlibala oğlu zərbənin təsiri nəticəsində aldığı ağır xəsarətlər səbəbindən hadisə yerində dünyasını dəyişib. Həkimlərin səyi nəticəsində yaralılar xilas edilib. Hazırda onların vəziyyəti orta-ağır olaraq qalır.

Faktla bağlı Baş Dövlət Yol Polisi İdarəsinin istintaq və təh-

YENİ MÜSAVAT
N 255 (6576) 17 noyabr 2016

**"Azərişıq" ASC Şəmkir rayonunda işləməyən daş karxanasına cərimə yazıb. Bu barədə "Yeni Müsavat"a Şəmkir rayonunun Şiştəpə kəndində fəaliyyət göstərən "Azərbaycan" dövlət kiçik müəssisəsinin direktoru Hüseynov Elşən Əli oğlu bildirib.**



Baba Rzayev

# "Azərişıq" işləməyən müəssisəyə cərimə yazıb

## Sahibkar Elşən Hüseynov: "Bir ildir fəaliyyətini dayandırmış daş karxanasına 2600 manat cərimə necə yazıla bilər?!"








Onun sözlərinə görə, müəssisə 30 ilə yaxındır daş istehsalı üzrə fəaliyyət göstərir. Lakin bir il əvvəl fəaliyyətini dayandırmalı olub: "Müəssisədəki texniki və maddi problemlərlə əlaqədar 2015-ci ilin oktyabrında fəaliyyətimizi dayandırmışıq. Bu barədə əlaqədar təşkilatlara, o cümlədən vergi orqanlarına rəsmi məlumat verilib *(14 saylı Ərazi Vergilər İdarəsinə 03.10.2015-ci il tarixdə ünvanlanmış ərizə redaksiyaya təqdim edilib)"*.

**Müəssisə direktoru deyir ki, iş dayanandan sonra da elektrik enerjisi haqqı sərfiyyata uyğun ödənilib:** "İşləmədiyimiz müddətdə transformator itkisi də daxil olmaqla, mühafizəçinin otağındakı istilik qızdırıcısı, sahədəki işıq lampalarının sərfiyyatını vaxtlı-vaxtında ödəmişik. Karxananın yerləşdiyi əraziyə baxan nəzarətçi-müfəttiş hər ay müəssisəyə gəlib, sayğac göstəricilərini götürüb və öz avadanlığı ilə bizə aid bildirişi təqdim edib (İşıq pulunun vaxtlı-vaxtında ödənilməsi barədə qəbzlər də redaksiyaya təqdim olunub) ".

**Elşən Hüseynovun sözlərinə görə, bu ilin sentyabrına qədər hər şey qaydasında olub, sərf olunan enerjinin haqqı ödənilib. Lakin bu il sentyabrın 29-da "Azərişıq" ASC-nin Satışa Nəzarət İdarəsinin müfəttişləri karxanaya gəliblər. Mühafizəçi onlara bildirib ki, karxana bir ildir işləmir:** "Buna baxmayaraq, nəzarətçilər transformatorun qapağının plombunun sökülməsini tələb ediblər. Mənə zəng gəldi və dəfələrlə təkrarladım ki, müəssisə işləmir, işləməyən yerdə hansı əsasla yoxlama aparırsınız. Nəzarətçi məni əmin etdi ki, narahatlığa əsas yoxdur, sayğac yoxlanılıb, işləmədiyi aşkarlanıb və yenisi ilə əvəzlənəcək". Lakin sonra məlum olub ki, narahatlığa əsas varmış. Çünki nəzarətçi akt yazıb və mühafizəçinin yanında olan tanışına - karxanaya heç bir aidiyyəti olmayan şəxsə sənədə imza atdırıb: "Sonra bildik ki, nasazlıq sayğacda yox, transformatorda olub. Müəssisəyə cərimə yazıldığını *(2600 manat!!)* yoxlamadan bir ay sonra - oktyabrın 25-də bilmişəm. Bu barədə ərazi üzrə nəzarətçinin də xəbəri olmayıb".

**Karxana sahibi cərimənin qanunsuz yazıldığını bildirir:** "Sayğacda və gərginlik transformatorunda qüsurun baş verdiyini mən necə təyin edib, müfəttişlərə xəbər verə bilərəm? Məndə bunu yoxlamaq üçün cihaz yoxdur axı. Əgər sayğaca müdaxilə etmişəmsə, qapağın hər iki tərəfindəki plomblar qırılmalı idi . Onlara isə əl dəyməyib. Digər tərəfdənsə fəaliyyətini dayandırmış müəssisədə sərfiyyat hansı əsaslarla iş vaxtı və iş gününə uyğun hesablana bilər?"

**Elşən Hüseynov deyir ki, prezident İlham Əliyev sahibkarlığa dəstək, onun inkişafına yardım məqsədilə, qanunsuz yoxlamaların dayandırılması ilə bağlı ayrı-ayrı vaxtlarda bir neçə sərəncam verib. Ötən il oktyabr ayının 26-da isə "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununu təsdiqləyib:** "Həmin qanuna əsasən, Azərbaycan Respublikası ərazisində sahibkarlıq sahəsində aparılan yoxlamalar iki il müddətinə dayandırılıb. Sənəddə yazılıb ki, bu qanun və onun əsasında qəbul edilmiş normativ hüquqi aktların tələblərinin pozulması ilə aparılan yoxlamaların hüquqi nəticəsi yoxdur. Buna baxmayaraq, "Azərişıq" nümayəndələri işləməyən müəssisədə qanunsuz yoxlama aparıblar, maddi çətinliklər üzündən fəaliyyəti dayanmış sahibkarlıq subyektinə daha bir zərbə vurmuş olublar. Bu, Azərbaycan hakimiyyətinin sahibkarlığa dəstək siyasətinə zidd hərəkətdir. Müəssisənin fəaliyyətinin dayanmasına da elə qanunsuz yoxlamalar, dövlət qurumları əməkdaşlarının süni əngəlləri səbəb olmuşdu. Biz fəaliyyətimizi bərpa etməyə, müəssisəni dirçəltməyə çalışsaq da, son qanunsuz müdaxilə bütün planlarımızı alt-üst edir, fəaliyyətimizin birdəfəlik dayanmasına səbəb olur. Bütün bunlara nə vaxt son qoyulacaq?"

Sahibkar inanır ki, "Azərişıq" ASC-nin sədri Baba Rzayev baş vermiş qanunsuzluğa obyektiv münasibət bildirəcək, müfəttişlərin fəaliyyətini bərpa etməyə gücü çatmayan müəssisəyə qarşı addımlarını pisləyəcək və yaranmış anlaşılmazlıq aradan qaldırılacaq.

"Azərişıq" ASC-nin mövqeyini dərc etməyə hazırıq.

❑ **Musavat.com**

# Akif Çovdarov və ailə üzvləri son 2 ildə xaricdə yarım milyona yaxın pul xərcləyiblər

**Bir müddət əvvəl ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrinə Nəzarət Baş İdarəsinin həbsdə olan rəisi Akif Çovdarov və ailə üzvləri tərəfindən xarici ölkələrdə xərclədikləri pulun məbləği açıqlanıb.**



Akif Çovdarov

APA-nın əldə etdiyi məlumata görə, Bakı şəhəri Səbayel, Xətai, Yasamal rayon məhkəmələrinin 7 yanvar 2016-cı il, Nərimanov Rayon Məhkəməsinin 8 yanvar, 13 iyun 2016-cı il tarixli qərarları əsasında kommersiya banklarından ələ keçirilmiş məlumatlarla müəyyən edilir ki, Çovdarov Akif Teymurxan oğlu və ailə üzvləri tərəfindən bank hesablarından 17.09.2013-cü il tarixdən etibarən 432.000 manat, 21.07.2014-cü il tarixdən etibarən 8.000 avro, 27.03.2014-cü il tarixdən etibarən 91.233 manat, 21.07.2014-cü il tarixdən etibarən 72.885 manat, 05.08.2014-cü il tarixdən etibarən 57.100 manat vəsait müxtəlif xarici ölkələrdə xərclənib (ümumi olaraq 432. 221 manat və 8 min avro).

Həmin fakt istintaq orqanı tərəfindən təqsirləndirilən şəxs Akif Çovdarovun külli miqdarda rüşvət alma, hədə-qorxu ilə pul vəsaitləri tələb etmə əməllərini törətməsini təsdiqləyən mötəbər sübut kimi qiymətləndirilib.

Bundan əlavə, axtarış və götürmə aparılmasına dair 14.11.2015-ci il tarixli qərarlar əsasında Akif Çovdarova məxsus fərdi yaşayış evləri, mənzillər, bağ evləri və digər saxlanc yerlərindən külli miqdarda qiymətli daş-qaşlarla bəzədilmiş qol saatları, üzüklər, sırğa dəstləri, kulonlar, boyunbağılar, bilərzik, sancaq, sırğa və kulon dəsti, mobil telefon cihazları, müxtəlif kommersiya banklarının plastik kartları, 6.810 manat, 3.758 ABŞ dolları, 10.000 Türkiyə lirəsi və suvenir tapançanın aşkar edilməsi, mülkiyyət və sahibliyində rəsmi gəlir mənbələri ilə uyğunluq təşkil etməyən çoxsaylı daşınmaz əmlakların, qiymətli əşyaların mövcudluğu onun vəzifəsindən sui-istifadə etməklə mütəşəkkil dəstə tərkibində quldurluq, hədə-qorxu ilə tələb etmə, rüşvət alma əməllərini törətməsini bir daha təsdiq edir.

Qeyd olunanlardan əlavə, axtarış və götürmə aparılmasına dair 14.11.2015-ci il tarixli protokoldan görünür ki, Akif Çovdarova məxsus, Bakı şəhəri Səbayel rayonu Badamdar qəsəbəsi massiv 3, ev 422-də yerləşən fərdi yaşayış evindən qızıl-zinət məmulatları, kompüter və digər texniki vasitələrlə yanaşı, iki ədəd kauçuk, bir ədəd metal dəyənək də aşkar edilib götürülüb.

# Köçkünlərə tikilən evlərdə mənimsəmə iddiası

## "Qaçqınkom"a növbəti ittihamlar; Natiq Cəfərli: "Azərbaycanda korrupsiya xroniki xəstəlik halındadır"



**Füzuli rayonunda məcburi köçkünlər üçün tikilən evlərlə bağlı narazılıq var. Bildirilir ki, dövlət başçısı İlham Əliyev bir neçə gün əvvəl yeni qəsəbənin açılışında iştirak edib. Sakinlər bundan sonra hurriyyet.org-a bildiriblər ki, ölkə başçısına yerli məmurlar yenə də yalan danışıb.**

"Qayıdış" qəsəbəsinin yaxınlığında, "Fin şəhərciyi"nin ərazisində inşa olunmuş yeni yaşayış massivinə sakinlər öz aralarında Ümid qəsəbəsi adını veriblər. 401 ailə üçün inşa edilən qəsəbədən 628 ailə böyük ümidlə onlara düşəcək mənzili gözləyirlər. Amma 227 ailənin taleyinin necə olacağı hələ məlum deyil. "Fin şəhərciyi"nin isə ümumiyyətlə, ləğv ediləcəyi gözlənilir.

Ümid qəsəbəsində hər bir ev 12 sot ərazidə inşa olunub ki, məcburi köçkünlərin həyətyanı sahəsi olsun. "Fin şəhərciyi"ndə ailə sayına görə məskunlaşmış sakinlərin mənzilləri də ailə sayının tərkibinə görə 1, 2, 3 və 4 otaqlı inşa edilib. Amma təəssüf ki, layihədə nəzərdə tutulan hamamlar tikilməyib. İndi isə hamam tikmək istəyənlərə layihədənkənar tikintini də aparmağa icazə vermirlər. Sakinləri narazı salan məqam odur ki, yeni yaşayış sahəsində layihədənkənar tikintinin aparılmasına da onlara icazə verilməyəcəyi bildirilib.

Sözügedən yaşayış massivində həqiqətənmi hamam tikintisi layihədən çıxarılıb? Həmçinin 401 mənzil inşa edildiyi halda, 628 ailədən 227-si harada yerləşdiriləcək? "Fin şəhərciyi" nə zaman ləğv ediləcək? Xalq arasında "Ümid" adı verilən yeni qəsəbədə tikilən 1, 2, 3, 4 otaqlı mənzillərin tikintisi nə qədər vəsaitə başa gəlib? Ümumilikdə qəsəbənin inşasına nə qədər vəsait ayrılıb?

Bu suallara Qaçqın və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsi münasibət bildirməyib.

**Ekspert Natiq Cəfərli məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, əslində tikinti sahəsi korrupsiyaya ən çox yol açan və korrupsiyaya ən çox şərait yaradan sahələrdən biridir:** "Dünyanın hər yerində belədir. Dövlət sifarişi hesabına Rusiyada normal biznes strukturlarının görəcəyi işlə dövlət məşğul olanda daha bahaya başa gəlir və dövlət büdcəsindən daha artıq vəsait xərclənir. Azərbaycanda da bu problem xroniki xəstəlik halındadır. Tikinti işlərinin aparılmasında ciddi korrupsiya faktlarının olması ehtimalı çox yüksəkdir. Bununla bağlı Hesablama Palatası normal araşdırma aparmalı, ortalığa bir sənəd qoymalıdır. Araşdırmaların nəticəsi də ictimaiyyətə açıqlanmalıdır. Göstərilməlidir ki, dövlət büdcəsindən ayrılan vəsait hansı formada xərclənib. Əgər bu, baş vermirsə, Hesablama Palatası bu işlə məşğul olmaq istəmirsə, deməli, nəsə gizlədilir. Çox ağır bir dönəmdəyik. Büdcədən ayrılan vəsaitin doğru-dürüst xərclənməsinə indi daha çox ehtiyac var. Amma görünən odur ki, bu yanaşma, dövlət büdcəsindən ayrılan vəsaitlərə gəlir mənbəyi kimi baxmaq yanaşması məmurlarda dəyişməsə və buna ciddi nəzarət olmasa, ayrılan vəsaitlərin böyük əksəriyyətinin belə yanaşma nəticəsində korrupsiya qurbanı olması ehtimalı çox yüksəkdir. Büdcənin effektiv xərclənməsi təmin edilməlidir. Bu, baş verməsə, ayrılan vəsaitin böyük hissəsi korrupsiyaya qurban getsə, bizi gələcəkdə daha ciddi problemlər gözləyə bilər".

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 255 (6576) 17 noyabr 2016

# Məmurların gəlirlərini gizli saxlamasının sirri

## Fazil Mustafa: "“Gəlir deklarasiyası haqqında” Qanun 2006-cı ildə qəbul edilib, amma tətbiqi uzun illərdir bilərəkdən dayandırılıb"

**Bir müddət əvvəl ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrinə Nəzarət Baş İdarəsinin həbsdə olan rəisi Akif Çovdarovun, onunla birlikdə həbs edilən, Energetika və Nəqliyyat Sahələrinə Nəzarət Baş İdarəsinin 1-ci idarəsinin rəisi Səlim Məmmədov və Energetika və Nəqliyyat Sahələrinə Nəzarət Baş İdarəsinin 3-cü idarəsinin 1-ci şöbəsinin rəis müavini Orxan Osmanovun üzərinə həbs qoyulan əmlaklarının siyahısı məlum olub. Siyahı o qədər böyükdür ki, oxuyub çatdırmağa, necə deyərlər, nəfəs yetmir. Bakı şəhərindən, ölkənin ucqar rayonlarına, kəndlərinə qədər hər yerdə bu adamların, əsasən Akif Çovdarovun daşınmaz əmlaklarının olduğu bu siyahıda əksini tapır. Siyahı artıq mediada yayılıb.**

A.Çovdarovun üzərinə həbs qoyulmuş əmlaklarının ümumi dəyəri 32.256.900 manat təşkil edir. Bu, bir nazirliyin çoxsaylı idarələrindən sadəcə birinin rəisinin hələ istintaqa məlum olan daşınmaz əmlakıdır. Bir idarə rəisinin hədsiz səviyyədə varidata sahiblənə bilməsində onun kriminal işlərlə məşğul olması ilə yanaşı, ölkədə məmurların illik gəlir deklarasiyası verməməsi faktı da rol oynayır.

Bu barədə “Yeni Müsavat”a danışan **deputat Fazil Mustafa** bildirdi ki, “Gəlir deklorasiyası haqqında” Qanun 2006-cı ildə qəbul edilib, tətbiq olunması üçün hətta fərman da var. Qanuna görə, xüsusi blanklar var ki, onu hər bir məmur doldurmalı və gəlir deklarasiyası verməlidir. Amma bu qanunun tətbiqi uzun illərdir bilərəkdən dayandırılıb: “Çünki gəlir deklarasiyası elan edilməyə başlansa, onda ölkədə bir çox problemlər ortaya çıxacaq-məsələn, vergi qaçaqçılığı. Başqa ölkələrdə ilin sonunda vergi rekordçusu fəxarətlə bəyan edilir. Vergi rekordçusu olan şəxs, şirkət bundan fəxr duyur. Bizdə qanunun tətbiq edilməməsinə görə insanlar bu boşluqdan sui-istifadə edir. Halbuki məmurun da, deputatın da, iş adamının da, gəliri olan hər kəsin borcudur ki, gəlir deklarasiyası doldursun və gəlirinə görə də dövlətə vergi ödəsin. Qeyd olunan sahədə boşluq olduğu üçün də haqqında söhbət gedən kriminal elementlər meydana gəlir, vətəndaşları soyub əmlaklarını öz əllərinə keçirirlər. Bu, çox acınacaqlı vəziyyətdir. Bu cür halların qarşısını almağın tək yolu hüquqa uyğunlaşmadır. Azərbaycanda qayda həmişə qanundan önə keçib. Halbuki qanun qaydadan önə keçməlidir. Onda tamam fərqli vəziyyət yaranacaq. Kriminal elementlər dövlət büdcəsini, vətəndaşların əmlakını mənimsəyə bilməyəcəklər. Təbii ki, ölkədə zəngin insanların sayının çox olması daha yaxşıdır.



Amma oğurluq yolu ilə zənginləşməyə yol verməmək olmaz. Gizli, qanunsuz yollarla zənginləşmiş adamlar heç kimə xeyir də vermir, hətta ürəyindən keçsə də kiməsə açıq şəkildə yaxşılıq edə bilmir. Belə adamın sərvətinin nə Allah qatında, nə insan qatında xeyri var. Bu baxımdan, məsələyə kompleks şəkildə yanaşmalıyıq. Qanun işləməlidir, qanun qaydalardan önə keçməlidir”.

**“Azərbaycanda istər yüksək səviyyələrdə olan bir çox məmurların, istər rayon miqyasında məmurların biznesinin olması hər kəsə bəllidir. Halbuki qanun məmurlara şəxsi biznes fəaliyyətini qadağan edir. ”Gəlir deklarasiyası haqqında" Qanunun tətbiq edilməsinə məhz biznesi olan məmurların çoxluğu amili mane olurmu" sualına deputat belə cavab verdi:** “Təbii ki, bu amil mane olur. Varlanmaq lazımdır, amma bu, qanunsuz yollarla olmamalıdır. Qanunsuzluğun baş verməməsi üçün də qanun ciddi şəkildə işləməlidir, qanunların işləməsinə nəzarət olmalıdır. Bu gün Milli Məclisin qanunların işləməsi üzərində hər hansı nəzarət imkanı yoxdur. Məsələn, biz zamanında dəfələrlə məsələ qaldırırdıq ki, təhlükəsizlik orqanları üzərində ciddi dövlət nəzarəti olmalıdır. Bu, ATƏT-in prinsiplərində də var. Əgər o nəzarət olsaydı, ən azı Akif Çovdarov kimi adamların kriminal əməlindən heç olmasa beş-on deputatın açıq məlumatı olardı. Bizim əslində qeyri-rəsmi məlumatımız var idi. İstər Eldar Mahmudov, istər onun bandası tərəfindən törədilən əməllər barədə tam məlumatımız var idi. Çünki şikayətçilər dərdlərini gəlib bizə söyləyirdilər. Amma əlimizdə təsirətmə mexanizmi yoxdur. Nəzarət etmək, məsələ qaldırmaq imkanımız yoxdur. Ona görə də problemlərin həlli bir çox kompleks məsələlərin həllindən keçir”.

❑ **Etibar SEYİDAĞA**

# Su anbarlarına təhlükə varmı?

## Ekspertlərin fikrincə, ölkədə su anbarlarının xüsusi nəzarət və qorunmaya ehtiyacı var

**Dövlət başçısı su anbarları ilə bağlı komissiya yaradılması barədə sərəncam verib. Sərəncamda bildirilir ki, ölkənin su, ərzaq və enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayan, dövlət əhəmiyyətli Şəmkir, Yenikənd, Mingəçevir, Varvara, Ceyranbatan və digər su anbarları uzun müddət istismar olunduğundan bu hidroqovşaqlarda mövcud problemlərin öyrənilməsi və qiymətləndirilməsi, baş verə biləcək texnogen proseslərin proqnozlaşdırılması zərurəti yaranıb. Yaradılan komissiyanın sədri Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev təyin edilib. Baş nazirin müavini Abid Şərifov, Prezidentin Administrasiya rəhbərinin müavini Zeynal Nağdəliyev, fövqəladə hallar naziri Kəmaləddin Heydərov, daxili işlər naziri Ramil Usubov, maliyyə naziri Samir Şərifov, iqtisadiyyat naziri Şahin Mustafayev, ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Bağırov, “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin sədri Etibar Pirverdiyev, “Azərsu” Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə isə komissiyanın üzvləridir.**



Əksər ekspertlər bildirirlər ki, ölkədə su anbarlarının xüsusi nəzarət və qorunmaya ehtiyacı var. Qeyd edək ki, bir müddət əvvəl içməli suyun zəhərlənmə ehtimalları da müzakirə edilib. Dövlət komissiyası su anbarlarının hidrotexniki qurğularında və su mühafizə zonasında mövcud problemləri araşdırıb, anbarların bəndlərinə təhlükə yaradan amilləri müəyyənləşdirməlidir. Texniki təhlükəsizliyi təmin edən tədbirlərə dair təkliflər iki ay müddətində dövlət başçısına təqdim edilməlidir.

**“Azərsu” Açıq Səhmdar Cəmiyyətinin mətbuat katibi Anar Cəbrayıllı** musavat.com-a açıqlamasında həmin anbarlara hansısa təhlükənin olub-olmamasından xəbərsizliyini açıqlayıb. Onun sözlərinə görə, “Azərsu” həmin anbarları qorumur, oraya daxil ola bilmir, sadəcə, anbarlardan su götürüb, təmizləyib əhaliyə içməli su verir.

**Ekspert Sülhəddin Əkbər isə qeyd edib ki, təhlükəsizlik məsələsi təhlükəsizlik xidmətlərinin rəhbərlərinə tapşırılmalıdır:** “Su anbarlarının qorunması ilə Prezident Adminstrasiyasının rəhbəri məşğul olursa, deməli, hökumət də, dövlət də çox pis durumdadır. Heç bir normal dövlətdə normal vəziyyətlərdə belə hal olmur. Xüsusi komissiya xüsusi hallarda, böhran və ya münaqişə, müharibə hallarında, fövqəladə vəziyyətlərdə yaradılır. Yəni normal durumlarda normal qurumlar öz uyğun sahələri ilə məşğul olurlar. Deməli, işlər normal getmir ki, belə xüsusi addım atmağa ehtiyac yaranıb”.

**Ekspert Arzu Nağıyev isə bildirib ki, bundan əvvəl də dövlət başçısı kanalizasiya sistemi ilə bağlı sərəncam verib:** “Bu iki sərəncam ciddi məsələni özündə əks etdirir. Milli təhlükəsizliyə və dövlət təhlükəsizliyinə təhdidlər arasında terrorla birgə təbii fəlakətlər də öz yerini tutur. Terror təhdidi, müharibələr təhdidi, fövqəladə hallar təhdidi, bundan başqa, milli təhlükəsizliyə, dövlət təhlükəsizliyinə, ərzaq təhlükəsizliyinə təhdid, təbii fəlakətlərlə bağlı təhdid də nəzərə alınmalı və ona qarşı tədbir görülməlidir. Son baş verən hadisələr bir daha onu göstərdi ki, bizdə kanalizasiya sistemi hər hansı baş verə biləcək təbii proseslərə tam şəkildə hazır deyil. Məhz buna görə də dövlət başçısı tərəfindən bu sistemin qurulması və yoxlanılması ilə bağlı belə sərəncam verildi. Hər hansı bir kanalizasiya sistemində baş verən hadisə, zəncirvari şəkildə, su-kanal sistemində çox sayda problemlər yarada bilir. Bu da demək olar ki, bütün sistemin sıradan çıxarılması ilə nəticələnə bilər. Hər hansı bir sistemin sıradan çıxması, kanalizasiyanın işləməməsi, su səviyyəsinin qalxması tunellərin tutulmasına gətirib çıxarır. Bu da respublika, dövlət əhəmiyyətli bütün obyektlərin hətta dayanmasına gətirib çıxara bilər. Məhz buna görə də Azərbaycanın xüsusi xidmət orqanlarının nəzarəti altında, eyni zamanda Daxili İşlər Nazirliyinin bir sıra qurumları tərəfindən su kanalları, eyni zamanda su kanallarından istifadə olunan boru kəmərləri qorunur. Son vaxtlar ehtiyac olduğu üçün məhz dövlət səviyyəsində belə bir məsələnin qaldırılması və sonunda prezidentin sərəncamı ilə, administrasiya rəhbərinin başçılığı altında bir komissiya yaradılıb. Komissiya yaradılıb ki, bu məsələlər bir də təftiş olunsun. Gələcəkdə təhdid kimi hər hansı bir prosesin baş verməsinin qarşısını almaq üçün bu məsələlərlə məşğul olunsun. Düşünürəm ki, bu komissiya hərtərəfli yoxlama aparmalıdır, yoxlamalıdır ki, həm kanalların mühafizəsi məsələsi, həm su borularının mühafizəsi məsələsi, eyni zamanda kanalizasiya sisteminin qurulmasının və mühafizəsinin məsələsi tam şəkildə ortaya qoyulsun. Bu sərəncamdan sonra məsələlər yoxlana və müvafiq qərarlıar qəbul oluna bilər. Su anbarlarına qarşı təhlükə, terror təhlükəsi istisna deyil. Dağlıq Qarabağ işğal olunduğuna görə, Suriyada İŞİD problemi olduğuna görə, müxtəlif terror təşkilatlarının terror aktı keçirmək niyyəti olmasını da nəzərə alaraq, bu məsələlərə ciddi yanaşılmalıdır. Su anbarlarında da mühafizə işi təşkil olunub. Bu mühafizə işi də davam etməlidir. Bu, baş verəcək hər hansı təhlükənin qarşısını almaq üçündür”.

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 255 (6576) 17 noyabr 2016

# Həbsdəki müavini Əli Abbasovun "kəlləsini" istəyir - dostları düşmən edən səbəblər

## Sabiq nazir 6,8 milyon manat ödəməklə canını qurtarmaq istəyir, amma Vidadi Zeynalov onu rahat buraxmayacaq; Əli Abbasov niyə məhkəmədə ifadə verməkdən yayınıb?

**Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (qısa olaraq, Rabitə Nazirliyi) sabiq Aparat rəhbəri Vidadi Zeynalov və digərlərinin cinayət işi üzrə proses Bakı Ağır Cinayətlər Məhkəməsində hələ hazırlıq mərhələsində olsa da, artıq sensasion məqamlar üzə çıxmaqdadır.**



Bir il əvvəl nazir Əli Abbasov işdən çıxarılmaqla canını qurtarsa da, nazirliyin aparat rəhbəri Vidadi Zeynalov da daxil olmaqla, bir neçə idarə və müəssisə rəhbəri həbs edildi. Gözlənilirdi ki, "içəridəkilər" bir müddət gözlədikdən sonra sakit dayanmayacaqlar.

İlk dilə gələn də Ə.Abbasovun "sağ əli" V.Zeynalov oldu. O, vəkili vasitəsilə "oranın naziri mən deyiləm ki, bütün məsuliyyət mənim üzərimdə olsun" deməklə Ə.Abbasova mesajını yolladı. İllərlə V.Zeynalovla bir müəssisədə işləyən, sözün bütün mənalarında bir süfrəni bölüşən sabiq nazir isə "mən təəssüf edirəm ki, belə bir fikir səsləndirib. Ondan belə bir şey gözləmirdim. Bu, əslində şantajdır" deyərək cavab verdi.

V.Zeynalov bir ildir həbsdədir. Ə.Abbasov isə iddialara görə, nəzarət altındadır, ölkədən çıxa bilmir, müstəntiqlər arada sorğu-suala aparır, yenidən bağ evinə qaytarırlar. Barəsində ayrıca cinayət işi olduğu xəbərini özü bugünlərdə təkzib edib, amma onunla bağlı prosesin bitmədiyi dəqiqdir.

"Yeni Müsavat"ın əməkdaşının noyabrın 16-da iştirak etdiyi prosesdə məlum olub ki, Ə.Abbasov ibtidai istintaq zamanı nazirlikdə törədilmiş qanunsuzluqla əlaqədar vurulmuş ziyana üzrə 6836540 manat ödəniş aparıb. Amma Ə.Abbasov bununla canını qurtarıb demək olmaz. Çünki məlumatlara görə, sabiq nazir hazırda bir neçə mülkünü də satışa çıxardıb ki, onu da nağdlaşdırıb dövlətə qaytarsın, üstəlik, həm artıqlaması ilə, həm də dollarla...

Ə.Abbasovun azadlığını pulla alması görünməmiş hadisə deyil, bu, xüsusilə dövlət əmlakını mənimsəmə məhkəmələrində tez-tez rast gəlinən prosedurdu. Amma Ə.Abbasovun problemi qalan məbləği ödəmək deyil. İndi onun daha ciddi problemi "kəlləsini" istəyən müavini, nazirlikdə az qala yeraltı kabellərin haradan keçdiyinə də bələd olan Vidadi Zeynalovdur.

Noyabrın 16-da baş tutan prosesdə V.Zeynalovun vəkillərinin Ə.Abbasovun yaxasından əl çəkməyəcəkləri təsdiqlənib.

V.Zeynalovun vəkilləri çıxış edərək onun əmlaklarının üzərindən həbsin götürülməsini, istintaq zamanı ifadə verən sabiq nazir Ə.Abbasov və müavini İltimas Məmmədovun məhkəmədə dindirilməsini istəyiblər. Vəkillər Əli Abbasovun və İltimas Məmmədovun istintaq zamanı dindirildiklərini, lakin məhkəməyə çağırılan şahidlərin siyahısında onların adının olmadığını deyiblər. Hələ məhkəmə prosesi başlayanda digər ittiham olunanların da dilə gələcəyi ehtimalı böyükdür. V.Zeynalovun sabiq nazirinə qarşı bu tavrı səbəbsiz deyil. V.Zeynalov nazirini ələ verməyə, onun adını çəkməyə, hətta müdafiə də edə bilərdi. Necə ki, hələ həbslər başlamamış Ə.Abbasov nazirliyində heç bir qanunsuz əməllərin olmadığını iddia edir, həbslər olacağı ilə bağlı xəbər yazan medianı günahlandırırdı. Amma elə ki, həbslər başladı, Əli Abbasov susdu, işdən qovulduqdan sonra isə öz köşəsinə çəkilib istintaqla danışıqlara getdi ki, 6, 8 milyon ziyanı ödəməsi faktının açıqlanması bu gerçəyi ortaya çıxardı. Axı necə ola bilər ki, heç bir məsuliyyətə cəlb edilməyən sabiq nazir dövlətə vurduğu ziyanı ödəsin.

Ə.Abbasovun bu dönüklüyü, yalnız özünü qoruması V.Zeynalovu qəzəbləndirməyə bilməzdi. Ə.Abbasovu şantajçı dediyi keçmiş işçisi ilə birləşdirən təkcə şərikli korrupsiya olmayıb, iddialara görə, bu adamların arasından "su keçməyib". İndi V.Zeynalovun bu dönüklüyünün qarşılığında Ə.Abbasovun məhkəməyə çağırılması başadüşüləndir. Ə.Abbasov isə işini daha "etibarlı" tutub, istintaqa ifadə verib, məhkəmədə isə V.Zeynalovla üz-üzə gəlmək istəməyib...

Amma hələ məhkəmə hazırlıq mərhələsindədir və Vidadi Zeynalov mütləq danışacaq...

❑ "YM"

# "Ayda 200-300 min manat xərcləyirdim"

## Əli Abbasovun ibtidai istintaqa ifadəsi açıqlandı

**Rabitə və Yüksək Texnologiyaları Nazirliyinin (RYTN) həbsdə olan aparat rəhbəri Vidadi Zeynalov və digərlərinin işi üzrə sabiq nazir Əli Abbasov ibtidai istintaqa ifadə verib.**

APA-nın əldə etdiyi məlumata görə, iş üzrə şahid qismində dindirilən Əli Abbasov deyib ki, nazirliyin ayrı-ayrı subyektlərindən, eləcə də strukturuna daxil olmayıb tabeliyində olan təşkilatlardan özünün ümumi məlumatı əsasında aylıq olaraq vəsaitlər toplanılıb.

Həmin vəsaitlər Vidadi Zeynalovun həmin struktur qurumların rəhbərləri ilə öz aralarında müəyyənləşdirdikləri və razılaşdırdıqları qaydada paylanılıb və digər xərclərə yönəldilib.

Bununla bağlı mütəmadi olaraq Vidadi Zeynalovun ümumi hesabatını qəbul edib. Bəzi hallarda həmin struktur qurumların rəhbərləri özləri ona şəxsən məlumat veriblər. Vidadi Zeynalova hansı qurumdan nə qədər vəsait alması barədə göstəriş verməyib, yalnız nazirliyin ümumi xərclərinin tənzimlənməsini tapşırıb.

Sonuncu hesabatlarında toplanmış vəsaitlərin ümumi miqdarı və kimlərə paylandığını bildirsə də, konkret olaraq kimə hansı miqdarda vəsait verilməsini bilməyib. Sabiq nazir özünün şəxsi xərclərinə aylıq olaraq 200.000-300.000 manat vəsait xərclədiyini bildirib. Bundan əlavə, nazir müavinlərinə əvvəllər 30.000 manat, son iki ildə isə 50.000 manat pul verilib. Bundan başqa, nazirliyin digər əməkdaşlarına da maddi ehtiyaclarını ödəmək üçün pullar verilib. Bayram şənliklərinin və digər mədəni-kütləvi tədbirlərin keçirilməsinə də vəsait xərclənib.

# "Rabitə işi" məhkəməsi başladı-vəkillər istintaqa qarşı

## Nazirliyin sabiq aparat rəhbəri Vidadi Zeynalov işin yenidən istintaqa qaytarılmasını istəmir: "Yenə də orada qanunsuzluq olacaq"

**Noyabrın 16-da Bakı Ağır Cinayətlər Məhkəməsində Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) 11 keçmiş əməkdaşının mənimsəmə və qulluq mövqeyindən sui-istifadə cinayəti işi üzrə məhkəmənin hazırlıq iclası keçirilib.**

Prosesə hakim Əfqan Hacıyev sədrlik edib.

Musavat.com-un məhkəmə prosesində iştirak edən müxbiri xəbər verir ki, keçirilən hazırlıq iclasında Vidadi Zeynalov və digər təqdirləndirilən şəxslərin vəkilləri vəsatətlərlə çıxış ediblər.

İlk olaraq Vidadi Zeynalovun vəkilləri vəsatətlərini məhkəməyə təqdim ediblər. Bildirək ki, nazirliyin sabiq aparat rəhbəri Vidadi Zeynalovun müdafiəsinə 3 vəkil qoşulub. V.Zeynalovun vəkillərinin ilk vəsatəti həbs-qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz edilməsi olub.

V.Zeynalovun vəkilləri əlavə edib ki, hüquqlarını müdafiə etdikləri şəxsə qarşı ittiham digər həbs edilən şəxslərin ifadəsinə əsasən verilib. Vəkillər bəzi ittihamların əsassız olduğunu deyiblər.

V.Zeynalovon vəkilləri bu günə qədər mətbuatda yazılan yazılara da etirazlarını bildiriblər.

"İttiham aktında qeyd edilən məqamlar məhkəmə başlamamışdan, hazırlıq iclası keçirilmədən mətbuata ötürülüb. Biz ittihamın qərəzli hazırlandığını bildiririk. Ancaq təəssüf ki, ictimaiyyəti çaşdıracaq yazılar KİV-lərdə dərc edilir. Bəlkə məhkəmənin hazırlıq iclasında işin ibtidai istintaqa qaytarılması ilə bağlı qərar qəbul ediləcək?" deyə, vəkillər qeyd edib.

Sabiq aparat rəhbərinin vəkilləri onun səhhətinin ağır və acınacaqlı olduğunu, bel və diz nahiyəsindən əməliyyat olunduğunu deyiblər.

**V.Zeynalovun ev dustaqlığına buraxılmasını istəyən vəkillər əlavə edib:** "Həbs-qətimkan tədbirinin seçilməsi qərarı Vidadi Zeynalovun ləyaqətinin alçaldılması, müdafiə hüququnun kobud şəkildə pozulmasıdır".




**Vəkillərin digər bir vəsatəti isə V.Zeynalovun və yaxınlarının əmlaklarına qoyulmuş həbslə bağlı olub. V.Zeynalovun vəkili Bəylər Məmişov müvəkkilinin bəzi əmlaklarına həbs qoyulmasının qanunsuzluq olduğunu, həmin əmlakları V. Zeynalovun nazirlikdə işə başlamamışdan əvvəl əldə etdiyini bildirib:** "Müvəkkilimin 2004-cü ildə əldə etdiyi fərdi yaşayış evi, Nəsib bəy Yusifbəli küçəsindəki fərdi yaşayış evi 2004-cü ildə alınıb, 1994-cü ildə alınmış, 2001-ci ildə oğlunun adına keçirilib, İsmayıllıdakı fərdi torpaq sahələri 2006-2007-ci ildə alınıb, Lənkəranda olan torpaq sahəsi fərdi yaşayış evinin banka girov qoyulması ilə alınıb, Zeynalovun oğlunun işlədiyi İqtisad Universitetindəki fəaliyyətinə görə verilən birotaqlı evə də həbs qoyulub. Bacısının və digər yaxın ətrafının da əmlakına həbs qoyulub. Həmçinin Vidadi Zeynalovun babasının 1941-ci ildə tikdirdiyi fərdi yaşayış evinə də həbs qoyulub. Bütün bunlar hüquq pozuntularıdır. Məhkəmə bütün bunları nəzər almalıdır".

B.Məmişov deyib ki, sabiq nazir Əli Abbasovun ibtidai istintaqa 6 milyon 836 min manat ödəniş etdiyini bildirib. Vəkil Əli Abbasovun nədə təqsirləndirildiyini və bu məbləği nə üçün ödədiyini bildirmədiyini söyləyib.

Vəkil Bəylər Məmişəv istintaqda sabiq nazir Əli Abbasovun və onun müavini olmuş İltimas Məmmədovun şahid qismində dindirildiyini və onların ifadəsinə əsasən Vidadi Zeynalova qarşı ittihamlar irəli sürüldüyünü söyləyib.

B.Məmişov Əli Abbasov və İltimas Məmmdovun şahid qismində məhkəməyə çağırılması ilə bağlı vəsatət verib. Vəkil deyib ki, V.Zeynalov hüquqlarının kobud şəkildə pozulması ilə bağlı baş prokuror Zakir Qaralova da müraciət edib. Lakin onun müraciətinə baxılmayıb.

**Anar Musatafayevin vəkili də çıxışında müvəkkilinin ev dustaqlığına buraxılması ilə bağlı vəsatət verib. Vəkil əlavə edib ki, Anar Mustafayev bir ildən artıqdır həbsdədir, ancaq o, evin tək qazanc gətirən üzvü olub. Vəkil A.Mustafayevin vurmuş ziyanın istintaqda şişirdilərək göstərildiyini söyləyib:** "Biz müəyyən bir məbləğin ödənilməsi ilə razıyıq. Ancaq istintaq zamanı yazılan məbləğ şişirdilib".

Vəkil ibtidai istintaq zamanı müvəkkilinin hüquqlarının kobud şəkildə pozulduğunu və işin yenidən araşdırılması üçün istintaqa qaytarılmasını istəyib.

**Digər təqsirləndirilən Namazalı Məmmədovun vəkili də eyni məzmunlu vəsatətlə çıxış edib.**

**Vəkil deyib ki, R.Məmmədovun 10 əmlakına həbs qoyulub:** "Həmin əmlaklar 2009-cu ildə əldə edilib. Onlara həbs qoyulması qanunsuzluqdur. Namazalı Məmmədovun 96 yaşlı anasının, xəstə övladının yaşadığı evə də həbs qoyulub. Həmin ev də "Rabitəbank"da girovdadır. Müvəkkilimin banka 2 milyon borcu var. O, ev dustaqlığına buraxılsa belə, ölkəni tərk etmək imkanı olmayacaq. O, evin yeganə qazanc gətirən üzvüdür. O ev dustaqlığına buraxılarsa, dəymiş ziyanı ödəyə bilər".

**Vəkil istintaq zamanı kobud qanun pozuntularının olduğunu deyib:** "İstintaqda bəzi qovşaqlarda yeyintilərin olması ilə bağlı məlumat bar. Qovşaqlar üzrə göstərilən məbləğlər hesablandıqda ümumi məbləğdən 2 milyon fərq edir. Bu da pozuntuların olduğunu göstərir".

Digər vəkillər də hüquqlarını müdafiə etdikləri şəxsin ev dustaqlığına buraxılması ilə bağlı vəsatət veriblər.

**Vidadi Zeynalov vəsatətlərə münasibət bildirərkən deyib ki, işin yenidən istintaqa qaytarılmasını istəmir:** "Bəzi vəkillərin ürəyi yanıb deyir ki, qanunsuzluğun aradan qaldırılması üçün iş istintaqa qaytarılsın. Ancaq yenə də orada qanunsuzluq olacaq. Ən yaxşısı bu iş burada araşdırılsın".

Prokuror Fərid Nağıyev vəsatətlərə münasibət bildirərkən deyib ki, Əli Abbasov və nazirliyin digər vəzifəli şəxsləri barəsində cinayət işi açılıb və araşdırmalar davam edir.

**Prosesdə Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin nümayəndəsi Vüqar Babayev vəkillərin vəsatətlərinə münasibət bildirib.**

**O, sabiq nazir Ə.Abbasov və onun müavini İ.Məmmədovun məhkəmədə dindirilmə tələbinin rədd edilməsini deyib:** "Nazirliyin digər vəzifəli şəxslərinin cinayət işi ayrıca icraata verildiyi üçün buna ehtiyac yoxdur".

V.Babayev bildirib ki, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi məhkəmədə 163 milyon manat dəyərində mülki iddia qaldırıb.

Daha sonra məhkəmə heyəti müşavirə otağına yollanıb. Müşavirədən qayıdan hakimlər kollegiyası vəsatətlərin təmin edilmədiyini elan edib. Məhkəmənin baxış iclası noyabrın 25-nə təyin edilib.

❑ İlkin MURADOV
❑ Musavat.com

YENİ MÜSAVAT
N 255 (6576) 17 noyabr 2016

**Baş prokuror Zakir Qaralovun Milli Məclisə göndərdiyi təkliflər geniş müzakirələrə səbəb olub. Təkliflərdə əsas diqqətçəkən məsələlərdən biri sosial şəbəkələrdə saxta profillərlə böhtan və təhqirə yol verən istifadəçilərlə bağlıdır. Zakir Qaralov bununla bağlı Cinayət Məcəlləsinə 148-1 (İnternet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək böhtan atma və ya təhqir etmə) maddəsinin əlavə edilməsi ilə bağlı qanunverici orqana təkliflər layihəsi təqdim edib.**

# Zakir Qaralovun təklifi sosial şəbəkələrdə saxta profillərin qarşısını alacaqmı?

## Arzu Nağıyev: "Məhkəmənin qərarı ilə hansısa cinayət etmiş şəxsin səhifəsini izləmək mümkündür"

Yeni maddəyə əsasən, internet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək kütləvi nümayiş etdirməklə böhtan atma və ya təhqir etmə 1000 manatdan 1500 manata qədər cərimə və ya 360 saatdan 480 saata qədər ictimai işlər, yaxud 2 ilədək müddətə islah işləri və ya 1 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Baş prokurorun təklifindən sonra əsas müzakirə olunan məsələ sosial şəbəkələrdə saxta profillər arxasında gizlənən şəxslərin aşkara necə çıxarılması ilə bağlıdır. Müzakirələrdə iştirak edənlər arasında ikitirəlik yaranıb. Bir qisim hesab edir ki, saxta profil istifadəçilərini Azərbaycanın hüquq-mühafizə orqanları asanlıqla üzə çıxaracaqlar. Amma digər bir qisim də belə şəxslərin ifşa olunmalarının çətin olduğunu düşünürlər.

Bu təklifin baş prokuror tərəfindən parlamentə göndərilməsini müxtəlif səbəblərlə izah edirlər. Son illərdə saxta profil istifadəçilərinin böhtan xarakterli xəbərlərinin, yüksək postlarda çalışan şəxslərin təhqir olunma hallarının artdığı və buna görə də, önləyici tədbirlər almaq üçün belə bir təklifin parlamentə təqdim olunduğu vurğulanır. Bundan sonra internet məkanında saxta profillərin azalacağı və belə profillər yaratma hallarının getdikcə sıfıra doğru gedəcəyi proqnozlaşdırılır.

**Təhlükəsizlik üzrə ekspert Arzu Nağıyev bildirdi ki, baş prokurorun təklifinin bir sıra səbəbləri var:** "Dezinformasiya xarakterli belə xəbərlər əsasən saxta profillər vasitəsilə yayılır. Cinayət işi qaldırmaq üçün obyektiv və subyektiv tərəf olmalıdır. Yəni cinayət işi qaldırmaq elə də asan məsələ deyil. Deputat Çingiz Qənizadə də bu məsələ ilə bağlı məlumat yaydı. İlk növbədə, bunun məramını, məqsədini aydınlaşdırıb, sonra onlar barəsində cinayət işindən söhbət gedə bilər. Fikir əslində çox normaldır. Son zamanlarda terror təşkilatlarına cəlb etmələr də bəzən sosial şəbəkələr vasitəsilə həyata keçirilir. Bu gün internet elə bir aktiv məkandır ki, orada bütün məsələlərə diqqət yetirilir. Dövlətçiliyə, hər hansı bir vətəndaşa əgər sosial şəbəkələrdə saxta profillərlə təhdidlər olursa, bunun qarşısı dərhal alınmalıdır. Bu baxımdan, hesab edirəm ki, bu məsələnin ortaya çıxması zərurətdir".



Arzu Nağıyev

**Ekspert sosial şəbəkələrdə saxta profillərin aşkara çıxarılmasının çətin olduğunu da qeyd etdi:** "Düşünürəm ki, bu məsələləri hüquq-mühafizə və təhlükəsizlik orqanlarının, eləcə də Rabitə Nazirliyinin səlahiyyətlərindən istifadə edərək həll etmək olar. Yəni bu adi bir vətəndaşın işi deyil ki, saxta profili üzə çıxarsın. Bu uzun bir proses kimi meydana çıxır. Hüquq-mühafizə və təhlükəsizlik orqanları tərəfindən qabaqlayıcı tədbirlər daim aparılır. Düşünürəm ki, dövlətçiliyi təhdid edən, cəmiyyətə təhlükə yaradan, hər hansı bir çağırışlar olunan məsələlərlə bağlı mütləq tədbir görülməlidir. Ümumiyyətlə, bu çox çətin məsələdir. Bunun həm texniki, həm də hüquqi tərəfini fikirləşmək lazımdır. Hazırda məhkəmənin qərarı ilə hansısa cinayət etmiş şəxsin profilini izləmək mümkündür. Bir faktı unutmaq olmaz ki, son illərdə dini qruplaşmalara cəlb olunmalar ən çox sosial şəbəkələr üzərindən aparılır. Yazışmalar burada çox asandır. Bunları axtarıb tapmaq kimi planlar sonda hər hansı bir strukturun yaradılması ilə nəticələnə bilər".

❑ **Cavanşir ABBASLI**

# Maliyyə sisteminin "zibilyığan balıqları"

## Problemli kreditlərin şirkətlərə satılması taktikası nəticə verəcəkmi?

**Bir neçə gün əvvəl mediada Beynəlxalq Bankın problemli borclarının "Aqrarkredit"ə ötürülməsi haqda xəbərlər yayılıb. Məlumatda bildirilir ki, bankın balansından çıxarılan problemli aktivlər 9 milyard 930 milyon manat həcmindədir. Həmin aktivlərin mütləq əksəriyyəti xarici valyutada olanlardır.**



O da məlum olub ki, hazırda problemli kreditlərin digər təşkilata ötürülməsi ilə bağlı ikinci mərhələnin aparılması müzakirə olunur. Bu prosesin 2016-cı ilin 2-ci, 2017-ci ilin 1-ci yarısında tamamlanması planlaşdırılır.

O da məlum olub ki, Maliyyə Nazirliyi, Azərbaycan Mərkəzi Bankı (AMB) və "Aqrarkredit" QSC arasında ötən il avqustun 11-də imzalanan baş sazişə əsasən, ABB-nin problemli kreditləri 2015-ci ildən 2017-ci ilədək "Aqrarkredit"ə transfert ediləcək. Hazırda bununla bağlı "Aqrarkredit"in ABB-yə 5,7 milyard manat məbləğində öhdəliyi yaranıb.

Bu məlumat Azərbaycanda bankların, xüsusən də ölkənin ən böyük dövriyyəsi olan Beynəlxalq Bankda vəziyyətin necə acınacaqlı olduğunu göstərməklə yanaşı, yeni bir tendensiyanı ortaya qoyur. Məsələ ondadır ki, problemli kreditlər məsələsi bir neçə il əvvəl qaldırılıb. O zaman banklar kollektor şirkətlər quraraq pulları toplamağa çalışırdılar. Amma indi durum daha fərqlidir. 10 milyard dollar vəsaitin taleyindən gedir. Üstəlik, indi borclar ilk dəfə olaraq başqa bir şirkət tərəfindən alınıb.

Qeyd edək ki, qonşu Türkiyədə bu təcrübə tətbiq olunub. Türkiyədə banklar batan və ödənilməyən kreditləri "Varlık Yönetim Şirketleri" adlanan şirkətlərə satır, bu borcları alan şirkətlər isə artıq ondan sonra borclulardan müxtəlif hüquqi vasitələrlə borcları almağa çalışırlar. "Maliyyə sisteminin zibilyığan balıqları" adlanan bu qurumlar *(Türkiyədə 8 belə şirkətin olduğu bildirilir - K.R.)* borclulardan zamanla bu borcları toplayır.

Bu sistem isə o qədər də mürəkkəb deyil. Bank problemli kreditlərinin satış tenderini keçirir. Ən yaxşı təklif verən şirkət borcları alır. Bu həm də borclara görə müəyyən olunur. Bəzən 100 liralik borc 30, bəzən isə (borca görə) 10, hətta 5 lirə qiymətləndirilərək satılır.

Bundan sonra borcu alan təşkilatlar borclu şəxslərlə əlaqəyə girib yeni şərtlərlə ödəmə təklif edirlər. Bu məsələdə hər 3 tərəf qazanmış olur. Bank əlindən çıxardığı kreditlərdən az da olsa geri alır, borclu isə banka olan borcunu qismən ödəyir və nəticədə şirkət də bundan müəyyən qazanc əldə edir.

Ötən illərdə Türkiyədə bu şəkildə 5 milyon vergi borcunun "Varlık Yönetim Şirketleri"nə satıldığı bildirilir. Ümumilikdə isə 6,6 milyard dollar borcun şirkətlərə satıldığı haqda məlumatlar mediada yer alıb. Qeyd edək ki, qardaş ölkədə bu sistem uzun illərdir çalışır. Azərbaycanda isə nisbətən yenidir.

**İqtisadçı-ekspert Qadir İbrahimli deyir ki, Azərbaycanda, konkret olaraq ABB-nin işi ilə bağlı borcların alınması mexanizmi faktiki olaraq yoxdur. Yalnız qismən bəzi borcların geri alınması mümkündür ki, o da çox azdır:** "Bu borcların alınma mexanizmi yoxdur. Böyük pullar mənimsənilib və ölkədən çıxarılıb. Bu məsələlər ancaq məhkəmə yolu ilə qismən həllini tapa bilər. Çünki elə borclular var ki, məhkəmə qərarları ilə də həll oluna bilməz. Kredit mənimsənilib, indi ortada nə pul var, nə də əmlak".

Ekspertin fikrincə, "Aqrarkredit"in bu borcları satın alması bu sahədə vəziyyəti dəyişməyəcək. Onun fikrincə, "Aqrarkredit" problemli borcları idarə edə bilməyəcək və bir müddətdən sonra o borclar "ümid borclar" adı ilə silinəcək.

❑ **Kənan RÖVŞƏNOĞLU**




# Gəncə Avtomobil Zavodu və bir neçə səhiyyə ocağı özəlləşdirilir

**Gəncə Avtomobil Zavodu və bir neçə iri səhiyyə obyekti özəlləşdirməyə çıxarılıb. Bu barədə Nazirlər Kabinetinin qərarında nəzərdə tutulub. "Marja"nın xəbərinə görə,Gəncə Avtomobil Zavodu hazırda da fəaliyyət göstərir. Maşın və traktorlar istehsal edir. Qərara görə, zavod səhmdar cəmiyyət kimi, investisiya müsabiqəsi yolu ilə özəlləşdiriləcək.**

Gəncə Avtomobil Zavodunun əsası 1986-cı ildə qoyulub. Müəssisənin tikintisi, layihəyə görə, 1989-cu ilin sonlarına qədər başa çatdırılmalı idi. Lakin Sovetlər Birliyinin dağılması nəticəsində zavodun tikintisi bir müddət yarımçıq qalıb. Yalnız 2004-cü ilin dekabrında Gəncə Avtomobil Zavodu işə düşüb.

Yaxın vaxtlarda Azərbaycanın bir sıra iri tibb müəssisələrinin də özəlləşdirməyə çıxarılacağı gözlənilir. Bura Gömrük Hospitalı, Mərkəzi Dənizçilər Xəstəxanası (Kaspar) və onun nəzdindəki uşaq poliklinikası daxildir. Habelə Dəmiryol, Heydər Əliyev prospektində yenicə inşa edilən və hələ tam fəaliyyətə başlamamış Sağlamlıq Mərkəzinin də özəlləşdirməyə çıxarılacağı bildirilir. Özəlləşdirməyə açılan obyektlərin bir hissəsinin də stomatoloji poliklinikalar olduğu qeyd edilib.

YENİ MÜSAVAT
N 255 (6576) 17 noyabr 2016

# Bakının "əlinə" işləyən ilginc gəlişmə

**ABŞ-ın yeni prezidenti Donald Trampın Krımı Rusiya ərazisi kimi tanıya biləcəyi ilə bağlı açıqlamasından çox keçməmiş maraqlı olay baş verib: BMT sanki Trampın acığına Rusiyanı işğalçı kimi tanıyan sənəd qəbul edib. Tanınma dünən BMT Baş Assambleyasının müvafiq komitəsinin Krımda insan haqlarının durumu ilə bağlı qəbul etdiyi qətnamədə əksini tapıb.**




# Rusiya rəsmən işğalçı kimi tanındı - Azərbaycan üçün mühüm presedent

## Bakı bu insidentdən yararlanıb Qarabağ problemini təzədən BMT gündəliyinə gətirə bilər; Ermənistanla birgə bu dəfə onun havadarının da təcavüzkar qismində tanınması ölkəmizin mövqeyini və manevr imkanlarını gücləndirərdi...

Ukraynanın təşkilatdakı daimi nümayəndəliyinin mətbuat xidmətindən verilən xəbərə görə, qətnamə "Krım Muxtar Respublikası və Sevastopolda (Ukrayna) insan haqları ilə bağlı situasiya" adlanır. Sənədi 73 dövlət dəstəkləyib. 23 ölkə əleyhinə olub, 76 ölkə isə bitərəf qalıb. Qətnamənin həmmüəllifləri qismində BMT-nin 41 dövləti çıxış edib.

"İlk dəfə olaraq BMT sənədlərində Rusiya işğalçı dövlət, Krım Muxtar Respublikası və Sevastapol isə müvəqqəti işğal edilmiş ərazi kimi tanınır. Bundan əlavə, qətnamədə Ukraynanın ərazi bütövlüyü təsdiqlənir və yarımadanın ilhaqı qəbuledilməz sayılır", - deyə nümayəndəliyin yaydığı məlumatda qeyd olunur.

Dekabrda qəbul edilən sənədin BMT Baş Məclisinin plenar iclasında təsdiqlənməsi gözlənilir. Ancaq böyük ehtimalla, Baş Məclis də komitənin mövqeyini müdafiə edəcək. Ehtimalın ciddi olduğunu söyləməyə əsaslardan biri də Krıma görə Moskvaya qarşı sanksiyalar tətbiq edən ABŞ-ın beynəlxalq təşkilatlarda da Rusiyanı sıxışdırmağa, onun işğalçı kimi tanınmasına çalışmasıdır. Bu yerdə yada salaq ki, BMT Baş Məclisində BMT Təhlükəsizlik Şurasından fərqli olaraq Moskvanın qərarlara veto qoymaq hüququ yoxdur.

***

Azərbaycanın sözügedən sənədlə bağlı hansı mövqe sərgilədiyi barədə hələ ki informasiya verilmir. Ancaq bu presedent ölkəmiz üçün böyük əhəmiyyət kəsb edir. Çünki Azərbaycan torpaqlarının da bir hissəsi işğal altındadır və bu işğalın həmmüəllifləri Ermənistan və həmin o Rusiyadır. İkinci yandan, belə presedent rəsmi Bakını analoji addım atıb, eyni nəticəyə nail olması üçün "yaşıl işıq" yandırır.

Doğrudur, indiyədək BMT TŞ Dağlıq Qarabağla bağlı 4 analoji qətnamə qəbul edib. Lakin onlar hələ də kağız üzərində qalır. Bununla belə, onlar ləğv də olunmayıb və Azərbaycana istənilən vaxt öz ərazilərini güc yolu ilə azad eləmək hüququ tanıyır.

Üstündən təxminən 23 il sonra BMT-nin öz mövqeyini yenidən təsbit edib təzə qətnamə qəbul eləməsi, ən azı, beynəlxalq birliyin Qarabağ məsələsində iradəsinin növbəti təsbiti kontekstində Azərbaycanın yalnız faydasına olardı. Çünki ötən zaman kəsiyində ATƏT-in Minsk Qrupu həmsədrləri BMT-nin onlara verdiyi mandatdan uzaq düşərək, faktiki, ermənipərəst mövqeyə yuvarlanıb, separatçılar üçün öz müqəddəratını təyinetmə ideyasını ortaya atıblar. Hətta prezident İlham Əliyevin açıqladığı kimi, bu yöndə Bakıya təzyiqlər etməyə başlayıblar.

BMT-nin yeni Qarabağ qətnaməsi bu üzdən onlar üçün "soyuq duş" effekti yarada, həmsədrləri bir növ əvvəlki ampluasına qaytarardı; onlara anladardı ki, Dağlıq Qarabağ ixtilafı yalnız BMT prinsipləri və beynəlxalq hüquq normaları, öncəliklə də Azərbaycanın ərazi bütövlüyü çərçivəsində nizamlana bilər. Yeni qətnamə bu xüsusda Ermənistanı bir daha işğalçı ölkə qismində təsbit eləməklə, vasitəçi dövlətləri də ona məhz bu cür baxmağa dəvət etmiş olardı.

***

Rusiyaya gəlincə, onun mötəbər beynəlxalq qurumlarda rəsmən işğalçı kimi tanınması əlbəttə ki, Azərbaycan üçün strateji baxımdan ikiqat önəm kəsb edir. Əsas səbəb deyildi - Rusiya Azərbaycan torpaqlarının şərikli işğalçısıdır, Ermənistanın arxasında duran əsas dövlətdir. Demək, ondan ədalətli və qərəzsiz vasitəçi çıxmaz. Xüsusən də Moskvanın son vaxtlar Ermənistanı sürətlə silahlandırmağa başlaması, ona müasir döyüş sistemləri verməsi və təcavüzkar ölkə ilə ortaq ordu birləşmələri yaratmağa başlamasından sonra ədalətli arbitr ümumiyyətlə, çıxmaz.

Hər necə olmasa, digər iki həmsədr ölkə - ABŞ və Fransa heç bir başqa ölkənin ərazisini ilhaq eləməyib və nə de-fakto, nə də de-yure işğalçı dövlət statusunda deyil. Bununla belə, vasitəçilik institutunda balansın İrəvanın xeyrinə pozulduğu acıq-aşkardır.

Odur ki, rəsmi Bakı bu balansı qardaş Türkiyənin hesabına bərpa eləmək, ədalətsiz sülh təkliflərini birdəfəlik rədd eləmək üçün indi heç vaxt olmadığı qədər əsaslara malikdir. Ermənistanın əsas hərbi-siyasi müttəfiqi Rusiyanın rəsmən işğalçı kimi tanınması bu əsasları yalnız gücləndirir, Bakının əlinə işləyir və Dağlıq Qarabağ məsələsində onun manevr imkanlarını və sözünün kəsərini artırır.

❑ **Siyasət şöbəsi**

# Rusiya-Ermənistan birgə qruplaşması Azərbaycana təhdiddir - ekspertlər həyəcan təbili çalır

## Hərbi analitiklər hadisələrin bundan sonrakı mümkün inkişaf ssenarisindən danışırlar...

**"Ölkə başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Lələtəpədən Ermənistana ünvanlanmış mesajları, görünür, təkcə işğalçı ölkəni deyil, ona açıq və gizli havadarlıq edən dövlətləri də təşvişə salıb. Belə olmasaydı, havadarları öz vassallarına ürək-dirək vermək üçün dərhal hərəkətə keçməzdilər".**

**Ehtiyatda olan polkovnik-leytenant Üzeyir Cəfərov** bunu Rusiya-Ermənistan hərbi əməkdaşlığının yaradılması ilə bağlı başlanan prosesi "Yeni Müsavat"a şərh edərkən bildirdi. Onun sözlərinə görə, 20 ildən artıqdır ki, guya sülhyaratma missiyasını üzərinə götürən qüvvələr bədnam qonşularımızı daha da şirnikləndirir, ona maddi və mənəvi dəstək verirlər: "Elə rus-erməni hərbi birləşməsinin yaradılması da yuxarıda söylədiklərimizin bariz nümunəsidir. Bu haqda söz-söhbətlər bir neçə ay bundan qabaq ortalığa atılanda çox təəssüf ki, bizim xarici siyasət idarəmiz və xüsusən də ATƏT-in Minsk Qrupu ciddi narahatçılıq ifadə etmədiyi üçün biz bu gün növbəti bir təhlükə ilə üz-üzəyik. Kim nə deyir-desin, mən bu addımı qəti şəkildə məhz Azərbaycana qarşı Qarabağla bağlı atılmış addım kimi qiymətləndirirəm. Rusiya onsuz da Cənubi Qafqazda maraqlarını təmin etmək üçün 2049-cu ilədək Ermənistanda böyük bir hərbi güc yerləşdirib. 102-ci baza istənilən təhlükəni aradan qaldırmaq gücündə olan bir qüvvədir. Onda sual olunur ki, belə olan halda Rusiyanın məhz işğalçı ilə yeni bir hərbi birləşmənin yaradılmasında məqsədi nədir?"



**Ekspert bu ittifaqın Azərbaycana hər hansı təhlükə törətmədiyi barədə iddiaları doğru saymadı:** "Yəqin bəziləri Qarabağda yaxın tariximizdə rus-erməni hərbi birləşmələrinin vəhşiliklərini, özbaşınalıqlarını unudublar. Sabah da Azərbaycan öz torpaqlarını işğalçıdan təmizləməyə başlayanda heç kim nəzarət edə bilməyəcək ki, əsgər və zabitlərimizin üzərinə şığıyan döyüş təyyarələrinin, vertolyotlarının və ağır texnikanın idarəetməsini erməni, ya rus hərbçi həyata keçirir. Onsuz da biz Qarabağ məsələsində haqlı tərəf olduğumuz halda 20 ildən artıqdır ikibaşlı, çoxgedişli hiylələr oynayan ATƏT-in Minsk Qrupunun biveclərinə sübut edə bilmirik. Biz bilirik ki, erməni ağlının məhsulu olsaydı, indi qorxaq ermənilər çoxdan ərazilərimizdən rədd olub getmişdilər. Amma "dovşana qaç, tazıya tut" prinsipi ilə öz maraqlarını regionda həyata keçirən böyük güclər günü-gündən öz çirkin niyyətlərini daha qabarıq büruzə verirlər. Belə məqamda biz daha da çevik, daha da prinsipial mövqedə dayanmalıyıq. Hamı görür ki, Azərbaycana sözdə dost, tərəfdaş deyən qüvvələr, başda Rusiya olmaqla, əslində Ermənistanın maraqlarını daha azğın şəkildə müdafiə edir, onu şirnikləndirir. Bu isə çox təhlükəli və ciddi xəbərdarlıq olmalıdır. Şəxsən mən proseslərin belə istiqamətdə inkişaf edəcəyini çoxdan görür, daim narahatçılığımı bölüşürdüm. Dünyasını dəyişmiş dəyərli siyasət adamımız, sabiq dövlət müşaviri Vəfa Quluzadənin daim narahatlıqla səsləndirdiyi fikirlərin necə də uzaqgörən və doğru olmasının bu gün biz bir daha şahidi oluruq. Böyük güclər, xüsusən də bizim şimal qonşumuz Azərbaycanın maraqlarına zidd olan hoqqalarını, oyunlarını daha da genişləndirir. Çox təəssüf ki, bu acı reallıqdır".

**Hərbi ekspert Azad İsazadə isə yaradılan hərbi birləşmənin ölkəmizə birbaşa olmasa da, dolayı təhlükəsinin olduğunu vurğuladı:** "Düzdür, Azərbaycan hərbi əməliyyatları öz ərazisində keçirir. Amma biz bilirik ki, ermənilər daim rus ordusunun resurslarından istifadə edib. Hərbi birləşmələr yaradılacaqsa, bu resurslardan da istifadə olunacaq. Söhbət erməni hərbçilərinin hazırlanmasından gedir ki, bu zaman Dağlıq Qarabağdakı dəstələrin də cəlb olunması mümkündür. Eyni zamanda birgə birləşmələr birmənalı şəkildə Cənubi Qafqazda "jandarm" rolunu oynayacaq. Ermənistanın iqtisadiyyatı, enerji təminatı Rusiyanın əlindədir. Siyasi rəhbərlik də Kremlin təsiri altındadır. Amma aprel döyüşlərindən sonra Ermənistan daxilindəki gərginlik və antirus çıxışlar göstərdi ki, ola bilər vaxtilə Qarabağda döyüşmüş və orduda xidmət edən zabitlər Rusiyaya qarşı çıxsınlar. Beləliklə, Rusiya faktiki olaraq Cənubi Qafqazdakı sonuncu forpostundan da məhrum ola bilər".

**A.İsazadə hesab edir ki, belə birləşmənin yaranması Ermənistandakı bütün qüvvələrin Rusiyaya tabe etdirilməsi deməkdir:** "Aydın məsələdir ki, birləşmənin başında rus generalı dayanacaq. Burada isə Ermənistan ordusundan hansısa hissə həmin qruplaşmaya ezam olunacaq. O demək deyil ki, Ermənistan ordusu, ümumiyyətlə, fəaliyyət göstərməyəcək. Ola bilər ki, bu birləşmə Qarabağdakı əməliyyatlara qoşulsun. Bu mənada o risk həmişə qalacaq. Heç kim bizə qarantiya verə bilməz ki, o qruplaşmanın hansısa hissəsi Qarabağdakı döyüşlərə qatılmayacaq".

**Əlavə edək ki, Ermənistan Kremlin bu qərarından sonra işğal altındakı ərazilərdə təxribatlarını artırıb. Rəsmi Bakı isə hələlik birgə birləşmələrlə bağlı mövqe bildirməyə tələsmir.**

❑ **Cavid TURAN**



# Qəbiristanlıqda toy

Zamin HACI
zaminhaci@gmail.com

**Planetimizdə söz azadlığının durumunu ciddi araşdıran qurumların birincisi "Sərhədsiz reportyorlar"dır desək, yanılmarıq. Onlar hər il sorğular, araşdırmalar əsasında söz azadlığı indeksi, dünya mətbuat azadlığı xəritəsi hazırlayırlar. Azərbaycan artıq neçə ildir o indeksdə ən pis yerlərdən birini tutur. Misal üçün, keçən il 180 ölkə içərisində 162-də idik. Bizimlə eyni gündə olanlar Afrikadan Ruanda, Eritreya, Asiyadan Şimali Koreya, Özbəkistan, Türkmənistan kimi dövlətlər idi. Maraqlıdır ki, hətta İran, Kamboca, Pakistan, Liviyada söz azadlığı bizdən yaxşıymış. "Sərhədsiz reportyorlar"ın xəritəsində Azərbaycan adətən qara rəngə boyanır.**

Öz problemlərimizi qabartmaq fikrim yox idi - yeri gələndə, insanlar hansısa restoranda yemək yeyərkən çox da veclərinə olmur ofisiantın, aşpazın həmin gün dədəsi ölüb, ya yox. İnsanlar xəbər almaq, qəzet oxumaq istəyirlər, bu da olmayanda yıxılıb yatırlar. Bizim xalqın üsyan forması, etiraz üsulu tarixən yatmaqdan ibarət olmuşdur, bəlkə də düz eləyiblər. O qədər oyaqlar görmüşük, heç bizdən qabağa getməyiblər. Necə deyərlər, ağıllı olub dərd çəkincə, dəli ol, qoy sənin dərdini çəksinlər. Sözgəlişi, bir dəfə SSRİ dağılanda hamıdan qabağa keçmişdik, hərənin əlində bir bayraq sapı, qocaman dövlətin abrını ətəyinə bükmüşdük. Axırı nə oldu? Ara yerdə Qarabağ getdi.

Bu mənada, gərək çox tələsməyəsən. Uca Mirzəmiz həmin temanı öz şeirində mükəmməl təsvir edibdir:

***"Başlayırıq qızmağa yay gəlməmiş,***
***Çırmanırıq keçməyə çay gəlməmiş,***
***Söz veririk, indi - bir ay gəlməmiş,***
***Asta qaçıb dürtülərik xəlvətə,***
***Kim nə deyər bizdə olan qeyrətə?!"***

Bəs mən yuxarıdakı dastanı niyə açdım, onu yazım. Dünən bir xəbər gördüm, gözüm kəlləmə çıxdı: "Bu gün Bakıda Heydər Əliyev Mərkəzində Dünya Xəbər Agentliklərinin V Konqresi, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) XVI Baş Assambleyası və MDB Dövlət İnformasiya Agentlikləri Rəhbərləri Şurasının (İnformşura) XXII iclası keçirilir". Tədbirdə Azərbaycan rəhbərliyi də ən üst səviyyədə iştirak və çıxış etmişdir.

İndi sən yuxarıdakı mənzərəyə də bax, keçirilən tədbirə də bax. Qız evində toydur, oğlan evinin xəbəri yoxdur. Azərbaycanda baş verən bir çox önəmli hadisələri bizim camaat adətən xaricdə hansısa informasiya agentliyi yazanda öyrənir, belə ərazidə isə sən "Dünya agentliklərinin iclasını" keçirdirsən. Ta mənim sözüm yoxdur. Ola da bilməz, çünki indiyə qədər türmələrimizdə yaşamış jurnalist qardaşlarımızdan ciddi dərs almışam.

Ancaq ta tema düşübdür, bir-iki kəlmə Mətbuat Şurası rəhbəri Əflatun müəllimdən narazılığımı bildirmək istəyirəm.

İlk növbədə, mətbuata, söz azadlığına qarşı çoxlu qanunlar, qaydalar düzəldilir, lakin biz bu təşəbbüslərdə yoldaş Amaşovun fəaliyyətini görmürük. Misal üçün, iki gün qabaq baş prokuror Milli Məclisə təzə qanun projesi göndərib, istəyirlər internetdə gizli imza ilə yazanları tutub qulağını şəhər darvazasına mıxlasınlar. Bəyəm bu təşəbbüsü Mətbuat Şurası qaldıra bilməzdi? Bəs şura sədri deputatxanada niyə oturubdur?

Yeri gəlmişkən, Əflatun müəllim orda tək mətbuatı yox, Saatlı rayonunu da təmsil edir. Deputat seçkisindən bir gün qabaq Rəşad Məcidlə rayondan keçib Qarabağı almağa gediblər *(ona da Zakir müəllim imkan verməyib, deyib lazım gəlməyib hələ)*, o vaxtdan Əflatun müəllim bir dəfə də Saatlı ərazisində görünməyibdir. Rayon camaatı isə bir ildir Amaşovun seçki şüarı *("Etimadınıza güvənim, ümidinizə sabahım, səsinizə dirənirəm!")* üzərində düşünür, anlamaq istəyirlər müəllim nə niyyət edib bu şüarla. Bəlkə də qəsdən belə edib ki, kənd adamlarıdır, beş il başları şüara qarışsın, vaxt keçsin.

Bax, elə MŞ sədrinə ikinci iradım da Saatlı ilə bağlıdır. Orda dövlətin planı ilə pambıq töküldü qaldı, yağış tarlanı islatdı, ancaq Əflatun müəllim Mətbuat Şurası xətti ilə biz jurnalistləri yığıb pambığa aparmadı. Nəticədə Sabirabad və İmişli, hətta Beyləqan da Saatlını pambıq yığımında ötüb keçdi.

Mən indi bir jurnalist olaraq heç bilmirəm Saatlı xalqının üzünə necə baxacağam. Ölsək, gözümüzə basmağa bir əlçim pambıq verməsələr haqları vardır.

---

**Rusiya sözdə özünü neytral vasitəçi kimi təqdim eləməyə çalışsa da, faktiki olaraq işğalçı Ermənistana hərbi dəstəyini artırmaqdadır. Qarabağ münaqişəsi mövzusunda son günlər müzakirə olunan məsələlərdən biri də Rusiya ilə Ermənistan arasında ortaq hərbi qruplaşmanın yaradılması ideyasıdır. Artıq məlumdur ki, Rusiya prezidenti Vladimir Putin belə qruplaşmanın yaradılması yönündə Müdafiə Nazirliyinə Xarici İşlər Nazirliyi ilə birgə işləmək barədə müvafiq göstəriş verib. İşğalçını silahlandırmaqla kifayətlənməyən Rusiya artıq onunla birgə hərbi qruplaşmalar yaratmaq işinə girişib. Bu isə Azərbaycanda haqlı narazılığa yol açmaya bilməz.**

# "Rusiyanın Ermənistana hərbi dəstəyi məsələsi BMT-də müzakirəyə çıxarılmalıdır"

## Tanınmış politoloqdan hakimiyyətə və müxalifətə təkliflər; "Ermənistanla birgə hərbi qruplaşmalar yaratdıqdan sonra Rusiya Minsk Qrupunun həmsədri olmaq kimi öz hüquqi və mənəvi haqqını artıq itirib"

Bu barədə danışan **politoloq Qabil Hüseynli** bildirdi ki, hadisələr çox təhlükəli səmt alır. Rusiya Cənubi Qafqazda ekstremal şəraitin yaranmasını istəyir və bunu açıq şəkildə həyata keçirmək üçün müxtəlif təhrikedici addımlar atır. Bu addımların bir qismini çoxdan idi gizli şəkildə həyata keçirirdisə, son zamanlar açıq şəkildə təhrikedici addımlar atmağa başlayıb: "Vaxtilə Ermənistan sərhədlərinin Rusiya sərhəd qoşunları tərəfindən qorunmasına əhəmiyyət vermirdik. Amma bu, Rusiya qoşunlarının Ermənistanda yerləşdirilməsinin başlanğıc mərhələsi idi. Daha sonra Ermənistanla Rusiya 20 illiyə hərbi saziş imzaladılar. Həmin sazişə uyğun olaraq Rusiya hərbi bazalarının Ermənistanda yerləşdirilməsi prosesinə başladılar. Onda da susduq. Burnumuzun dibində Ermənistan sürətlə militarisləşdirildi və KTMT-nin Hava Hücumundan Müdafiə Sistemlərinin yaradılması da Ermənistandan başladı. Daha sonra bu təşkilatın Akademiyasının Ermənistanda yaradılmasına start verildi, Ermənistana əl altından silahlar göndərilməsinə də Rusiya həyata keçirdi. Məsələn, "İsgəndər-M" raketlərinin işğalçı ölkəyə göndərilməsi çoxdan həyata keçirilibmiş. Kredit adı altında Rusiya Ermənistana 200 milyon dollar dəyərində silahlar verib. Təkcə "İgəndər-M"in qiyməti 500 milyon dollardır. Ermənistana verilən "İsgəndər-M"lər 2 milyard dollar edir. Bundan başqa, "Miq-31" aviasiya təyyarələri, "Solntse" tipli odsaçan silahlar, pilotsuz təyyarələr, tanklar, müasir hərbi texnikalar Ermənistana göndərilib. İndi də Rusiya Ermənistanla birgə ordu qruplaşmalarının yaradılması haqqında sərəncam imzalayıb. Bu, artıq misli görünməmiş bir hadisədir. Heç bir dövlətin praktikasında belə bir hala rast gəlinmir".



**Azərbaycanın Rusiyanın bu addımlarına hansı şəkildə cavablar verməsi məsələsinə gəlincə, politoloq dedi ki, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün vasitəçilik edən ATƏT-in Minsk Qrupunun həmsədri olan bir ölkənin işğalçı tərəfə bu qədər hərbi dəstəyi, işğalçı tərəflə birgə ordu qruplaşması yaratması analoqu olmayan, qəbul edilməsi mümkün olmayan haldır. Vasitəçi sayılan bir dövlət işğalçı ilə hərbi ittifaqdadırsa, onun vasitəçiliyi artıq sona yetmiş olur. Ona görə də Azərbaycan bu məsələni çox ciddi şəkildə qaldırmalıdır:** "Ermənistanla birgə hərbi qruplaşmalar yaratdıqdan sonra Rusiya Minsk Qrupunun həmsədri olmaq kimi öz hüquqi və mənəvi haqqını artıq itirib. Azərbaycan bu faktın hüquqi reallaşması üçün cəhdlər etməlidir.

Azərbaycanın Rusiyaya yaxın qonşuluq münasibətlərinə əsaslanan yanaşması fonunda Rusiyanın atdığı addımlar heç bir siyasi, etik və hüquq normalarına sığmır. Bir tərəfdən bizə guya sülh yaradılması haqqında nəğmələr oxuyurlar, hətta böyük sülh sazişinin ilin sonuna qədər imzalana biləcəyi barədə fikirlər irad edirlər, o biri tərəfdən də Ermənistana dağıdıcı silahlar göndərirlər, birgə hərbi qruplaşmalar yaradırlar. Bunlarla bağlı Azərbaycanın müəyyən addımlar atmasına zərurət var. Əvvəla, nota ilə Rusiyaya bu hərəkətlərinin beynəlxalq hüquq normalarına zidd olduğunu, Azərbaycanla yaxın qonşuluq münasibətlərinə uyğun gəlmədiyini bildirmək lazımdır. Məsələ hətta elə həddə çatıb ki, Rusiyanın Ermənistanı silahlandırması, işğalçı dövlətlə birgə hərbi qruplaşmalar yaratması məsələsi BMT Təhlükəsizlik Şurasında da müzakirəyə çıxarılmalıdır. Çünki faktiki olaraq söhbət Minsk Qrupu həmsədri olan dövlətlərdən birinin təcavüzkar tərəfə hərbi dəstəyindən gedir. Bu, analoqu olmayan haldır və BMT bu məsələyə hüquqi-siyasi qiymət verməlidir".

**Q.Hüseynli vurğuladı ki, digər tərəfdən, artıq Azərbaycan cəmiyyəti də hərəkətə gəlməlidir, Rusiyaya öz etirazını bildirməlidir:** "Qarabağ Azadlıq Təşkilatı, digər ictimai qurumlar, siyasi partiyalar Rusiya səfirliyi qarşısında piketlər, mitinqlər təşkil etməlidir və ictimai etiraz ifadə olunmalıdır ki, Moskva Azərbaycan cəmiyyətinin onun Ermənistana hərbi dəstəyinə biganə qalmayacaq. Qarabağ məsələsi bəlkə də yeganə məsələdir ki, iqtidarla müxalifətin mövqeyi üst-üstə düşür-hər iki tərəf Qarabağın azad olunmasını istəyir. Odur ki, iqtidarlı müxalifətli bütün siyasi partiyaların bir araya gələrək Dağlıq Qarabağ məsələsi və Rusiyanın Ermənistana hərbi dəstəyi ilə bağlı ciddi mövqe ortaya qoymasının zamanı yetişib. Bütün partiyalar Rusiyanın addımlarına etirazlarını birgə ortaya qoymalıdırlar".

❑ **Etibar SEYİDAĞA**

---

# Azərbaycan və Küveyt hava əlaqəsi haqqında hökumətlərarası saziş imzalandı

**"Azərbaycan Hava Yolları" (AZAL) QSC-nin prezidenti Cahangir Əsgərov və Küveyt Mülki Aviasiya İdarəsinin baş direktoru Yusif Əl-Fuzan (Yousef Al-Fouzan) iki ölkə arasında hava əlaqəsi haqqında hökumətlərarası saziş imzalayıblar.**

Bu barədə musavat.com-a Azərbaycan Respublikası Dövlət Mülki Aviasiya Administrasiyasının mətbuat xidmətindən məlumat verilib.

"Qeyd olunan sazişin imzalanması nəticəsində ölkələr arasında hava əlaqəsinin açılması üçün maneələr aradan qaldırıldı ki, bu da Azərbaycan və Küveyt arasında ikitərəfli iqtisadi və mədəni əlaqələrin daha da inkişaf etməsinə təkan verəcəkdir.

Mülki aviasiya ölkələr arasında millətlərarası mübadilənin təmin olunmasında mühüm rol oynayır və Azərbaycanla Küveyt arasında sərnişin daşımaları bazarının tələbatını ödəməyə hazırdır. Xüsusilə Azərbaycanın milli daşıyıcısı "Azərbaycan Hava Yolları" və yük daşıyıcısı "Silk Way Airlines" Küveyt şəhərlərinə birbaşa reyslərin açılması imkanlarını araşdırırlar. Eyni zamanda Küveytin "Əl-Cəzirə" aviaşirkəti ölkəmizə birbaşa reyslər açmaq niyyətindədir" - deyə, xəbərdə bildirilir.

Qeyd edək ki, sazişin imzalanması cari il oktyabrın 24-də Küveytdə Azərbaycanın turizm bazarının potensialının təqdimatı ərəfəsində həyata keçirilib.



Yeni MÜSAVAT
N 255 (6576) 17 noyabr 2016



# ABŞ-da prezident seçkiləri: niyə Tramp? - Ərəstun Oruclu Vaşinqtondan yazır

## Bu, sadəcə, milyarder Trampın qələbəsi deyil, bu, həm də ABŞ siyasi istebleşmentinin ağır məğlubiyyətidir

**Bir neçə aydır ABŞ-a köçən, mediada və sosial şəbəkələrdə də görünməyən politoloq Ərəstun Oruclu özəl olaraq "Yeni Müsavat" üçün məqalə hazırlayıb. Onun yazısını təqdim edirik:**

***

ABŞ-dakı son seçkilərdən bir həftə keçdi, amma ölkə və dünya mətbuatı hələ də bu seçkilərlə bağlı emosional notlardan uzaqlaşa bilmir. Donald Trampın prezident kürsüsünə yiyələnməsinin səbəbləri və ehtimal olunan nəticələri ilə bağlı ən müxtəlif şərhlər, dəyərləndirmələr və proqnozlar verilir. Halbuki 8 noyabr seçkiləri əslində daha geniş və konseptual müzakirələrin predmetidir. Ona görə ki, bu, sadəcə, milyarder Trampın qələbəsi deyil, bu, həm də ABŞ siyasi istebleşmentinin ağır məğlubiyyətidir. Bəlkə də bu yerdə "iflasıdır" demək daha yerinə düşərdi. Bəli, məhz demokratlara və respublikaçılara bölmədən bütövlükdə isteblişmentin, həm də ABŞ siyasi elitasının son 25-30 ildə yürütdüyü, artıq cəmiyyətə də həzm etdirə bildiyini düşündüyü yanlış strategiyanın iflasıdır.

8 noyabr seçkilərini və onun nəticələrini, həmçinin bu nəticələrin səbəblərini bir qədər daha dərindən anlamaq üçün ABŞ siyasətinin son 25-30 ilinə ötəri bir diqqət yetirməli olacağıq. Zənnimcə, həmin dövrü ölkə siyasətinin durğunluq dönəmi kimi qiymətləndirsək çox da yanılmarıq. 1988-ci ildə respublikaçı Corc Herbert Uolker Buş (ata Buş) ABŞ-ın 41-ci prezidenti seçildi və cəmi bir prezidentlik müddətindən sonra öz yerini 42-ci prezident demokrat Bill Klintona təslim etməli oldu. Bu illərdən də başlayaraq ABŞ siyasəti faktiki olaraq 2 partiyanın, başqa sözlə isə 2 ailənin inhisarına keçdi - Respublikaçılar Partiyası Buş ailəsinin təmsilçisinə, Demokratlar Partiyası isə Klinton ailəsinin maraqlarının reallaşdırılması vasitəsinə çevrildi. Hətta 2008-ci ilin praymerizində Hillari Klintonun Barak Obamaya məğlub olması da klintonların Demokratlar Partiyasına inhisarına son qoya bilmədi. Paralel olaraq, həmin dövrdən bu partiyalara yaxın bir sıra beyin mərkəzləri "Elitaların dialoqu" anlayışını dövriyyəyə buraxmağa və siyasi leksikona daxil etməyə başladı. "Elitaların dialoqu", sadəcə, siyasi anlayış və ya siyasi terminlə məhdudlaşmırdı, o, böyük bir strateji xəttin siyasi leksikonda ifadəsi idi. Strateji xəttin əsas mahiyyəti isə ikiqütblü siyasi sistemin daxilində hakimiyyətin mütəmadi olaraq bir qütbdən *(daha doğrusu, qrupdan)* digərinə ötürülməsindən ibarət idi. Həmin strategiyadan doğan elita maraqlarının üst-üstə düşməsi fonunda üçüncü tərəf tamamilə unudulurdu. Unudulan tərəf ABŞ siyasi sisteminin verdiyi geniş hüquq və azadlıqlara malik olan xalq və ya seçicilər idi. Tədricən siyasi elitaların xalqdan uzaqlaşması başladı ki, son nəticədə bu, faktiki olaraq ölkənin bir çox sosial-iqtisadi problemlərinin də arxa plana keçməsinə gətirib çıxardı. Əhalisinin 40-45 milyona yaxını yoxsul sayılan ABŞ üçün bu heç də yaxşı bir dinamika perspektivdə yaxşı heç nə vəd eləmirdi. Siyasətdə hər zaman olduğu kimi, "Elitaların dialoqu"nun da qısamüddətli cəlbediciliyi onun uzun vadəli baxdıqda ortaya çıxaracağı neqativ effektləri kölgədə qoymuşdu. Qeyd edim ki, adıçəkilən strategiyanı diqqətlə izlədikdə asanlıqla görmək olur ki, o, elə ABŞ siyasətinin son illərdə digər ölkələrə də fəal şəkildə ixrac etdiyi modeldir. Təsadüfi deyildi ki, bir sıra ABŞ beyin mərkəzlərinin təmsilçiləri keçən əsrin 90-cı illərinin sonlarında Bakıda da bu mövzuda dəyirmi masalar və digər tədbirlər təşkil edib, müzakirələr aparırdılar. Analogiya üçün çox da uzağa getməyə ehtiyac yoxdur - elə 1993-cü ildən başlayan elitaların dialoqu *(söhbət Azərbaycansayağı dialoqdan gedir, əlbəttə)* və həmin vaxtdan bugünədək mövcud olan siyasi sistem həm keyfiyyət, həm də kəmiyyət baxımından dəyişməz qalmaqdadır. Həmin model spesifik formalarda Rusiya da daxil olmaqla, postsovet məkanda və həmçinin Avropa ölkələrində son 25-30 ildə mövcud olan oturuşmuş və sabit kimi görünən siyasi idarəçilik sisteminin də sütununu təşkil edir. İctimai-siyasi və sosial-iqtisadi sabitlik nəzər nöqtəsindən ilk baxışdan cəlbedici görünən bu modelin yuxarıda qeyd etdiyim kimi, çatışmayan bir iştirakçısı da vardı ki, əslində o, elə ən həlledici iştirakçıdır. Təbii ki, söhbət xalqdan gedir. Demokratik sistemdə isə xalq həm də seçicidir. Gördüyümüz kimi, mövcud model xalqın seçim imkanını məhdudlaşdırmışdı və uzun illər idi ki, xalq öz seçimində demokratlar və respublikaçılar tandemi arasında məhdudlaşmaq zorunda qalmışdı. Başqa sözlərlə, ABŞ seçicisi öz iradəsinə zidd olaraq "Elitaların dialoqunun" passiv iştirakçısına çevrilmişdi. Amma ABŞ seçicisinin bir çox digərlərindən əsas fərqi onun öz səsinin sahibi olmasıdır ki, bu da seçici əhvalının hansı durumda olmasını artıq 2016-cı il prezident seçkiləri ərəfəsində qabarıq şəkildə nümayiş etdirməyə başlamışdı. Bu da təsadüfi deyildi ki, həm respublikaçıların, həm də demokratların prezidentliyə namizədinin müəyyənləşdirilməsi prosesində (praymeriz) məhz bu partiyalara aidiyyəti olmayan potensial namizədlər əsas favoritlər kimi görünürdülər. Həmin mərhələdə demokratların praymerizində partiyanın əsas namizədi kimi nəzərdə tutulan Hilları Klintona ciddi rəqabət təşkil edən senator Berni Sandersə və respublikaçılar partiyasının potensial namizədlərini bir-bir sıradan çıxaran milyarder Donal Trampa kütləvi seçici rəğbətini görməmək mümkün deyildi. Bu da səbəbsiz deyildi. Bir-birindən prinsipial fərqi olmayan hər iki düşərgə xalqdan (seçicidən) xeyli uzaqlaşmışdı və onların nəinki geriyə dönmək, hətta boylanmaq fikrində olduqları belə görünmürdü. Məhz ona görə də həmin mərhələdə siyasi sistemin təmsilçiləri olmayan müstəqil senator Sanders və milyarder Tramp liderlik edirdilər. ABŞ seçiciləri onların simasında öz çabalarının ifadəçisini görürdü. Bu yerdə onu da qeyd edim ki, bir çox yerli analitiklər demokratların Klinton ailəsinin siyasi iddialarına müqavimət göstərə bilib senator Sandersi namizəd vermiş olduqları halda seçkidən qalib çıxacaqlarını söyləsə də, bu, artıq tarixdir. Amma hakimiyyətdə olan demokratlar görünür, məhz iqtidarda olmalarına, ABŞ maliyyə elitasının dəstəyinə və digər amillərə arxalanaraq, israrla Hillari Klintonun namizədliyini irəli sürdülər. Sadalanan resursların təsiri də bütün seçki kampaniyası boyu özünü çox qabarıq şəkildə göstərirdi. Məsələn, ABŞ-ın 80-ə yaxın aparıcı media resursundan cəmi 2-si Donal Trampa rəğbət göstərirdi, bütün kampaniya dövründə milyarderi ifşa edən müxtəlif faktlar üzə çıxarılırdı. Ədalət naminə onu da qeyd edim ki, qeyri-ordinar *(çox yumşaq desək)* bəyanatları ilə Donald Tramp özü də bu işə hərtərəfli imkan yaradırdı. Aparılan sosioloji rəy sorğuları isə Klintonun prezident seçiləcəyinə heç bir şübhə yeri qoymurdu. Amma bütün bunlara rəğmən Donal Tramp ABŞ-ın 45-ci prezidenti seçildi. O, hətta demokratların ənənəvi dayaqları sayılan Miçiqan, Viskonsin və bu kimi bir sıra digər ştatlarda belə opponentinə heç bir ümid yeri qoymadı.



Sosioloji sorğular haqqında bir qədər detallı yazmaq istərdim, çünki bir çox hallarda onların obyektivliyi şübhə altına alınır. Əslində isə istənilən sorğunun idealdan uzaq olması ilə yanaşı, prezident seçkiləri ərəfəsində ABŞ-da keçirilən sorğuların ilk baxışdan görünməyən bir özəlliyi də vardı. Donald Trampın bir sıra hallarda açıq şəkildə verdiyi ksenofob, islamofob və digər bu ruhlu bəyanatları demokratların siyasi texnoloqları tərəfindən məharətlə istifadə edildi və milyarder "irqçi sentimentlərin" daşıyıcısı kimi qabardılmağa başladı. Bərabərlik, azadlıq və hüquq kimi dəyərlərin üstünlük təşkil etdiyi Amerika cəmiyyətində isə belə şəxsə etimad göstərmək alqışlanan mövqe deyil. Görünür, elə bu səbəbdən də bir çox rəyi öyrənilən amerikalılar Donald Trampa simpatiyalarını gizlətməyə məcbur olurdular. Amma gizli səsvermədə onların öz seçimini reallaşdırmasına heç bir maneə yox idi və olmadı da. Yeri gəlmişkən, seçkilərin heç kəsin və o cümlədən Donal Trampın özünün də gözləmədiyi nəticələri elan olunan kimi onun saytındakı seçki proqramından müsəlmanların ABŞ-a girişinə məhdudiyyətlə bağlı bənd "buxarlandı". Bunu müsbət dinamika kimi qeyd etmək olar, məncə: deməli, milyarder Tramp prezident Trampın məsuliyyət çərçivələrini artıq ilk dəqiqələrdən duymağa başlamışdı.

Bu seçkilərdə əsas diqqət çəkən məqamlardan biri də seçkiqabağı kampaniya dövründə Tramp-Rusiya münasibətləri ilə bağlı daim qabardılan müzakirələr idi. Şübhəsiz ki, biznesmen Trampın Rusiya ilə iqtisadi əlaqələri olmamış deyil və Rusiyadakı kapitalın əsasən hakim oliqarxiyaya yaxın və ya birbaşa məxsus olduğunu nəzərə alsaq, demək, Rusiya siyasi dairələri ilə də. Amma zənnimcə, bu mövzunun gündəmdən düşməməsinin başlıca səbəbi Donald Trampın guya az qala Rusiyaya işləməsi haqda dəlilsiz-sübutsuz iddialar deyildi. Mövzunun istismarı həm Rusiya hakimiyyətinin, həm də ABŞ siyasi dairələrinin marağında idi. Birincilər bununla daxili auditoriyaya Putin hakimiyyətinin hətta ABŞ seçkilərinə təsir edəcək dərəcədə güclü olmasını, ikincilər isə uğursuzluğun səbəblərinin ölkədən kənarda olduğunu vurğulamaqda (xarici "düşmən" faktoru) maraqlı idilər. Şübhəsiz ki, bu məsələdə "qara piar" elementləri də yox deyildi. Amma gördüyümüz kimi bu "tezis" də işləmədi. Ümumiyyətlə, Hillari Klintonla Vladimir Putinin şəxsi münasibətlərində neqativ çalarların üstünlük təşkil etməsinə baxmayaraq, Rusiya hakimiyyətinin ABŞ-da respublikaçı prezidentin olmasını arzuladığını düşünmək bir qədər çətindir. Unutmayaq ki, respublikaçıların xarici siyasətində ənənəvi olaraq sərt xətt üstünlük təşkil edir ki, bu da indiki şəraitdə heç də Rusiyanın milli maraqlarına cavab vermir.

Beləliklə, amerikalı jurnalistlərin, ekspertlərin və müşahidəçilərin təbirincə desək, ABŞ tarixində ən qalmaqallı və ən bölücü seçki prosesi başa çatdı. Ölkədə az qala hər gün keçirilən ətirazlı aksiyalarına baxmayaraq, Donal Tramp ABŞ prezidenti seçilib və gələn ilin yanvarından bu vəzifənin icrasına başlayacaq. ABŞ siyasi sistemi yavaş-yavaş şokdan çıxmağa başlayır. Prezident Obama Donald Trampla görüşdü və hər iki tərəf bir-birinə yetərincə pozitiv mesajlar verdi. Bu da təbiidir, Barak Obamanın "Donal Trampın uğursuzluğu ABŞ-ın uğursuzluğu olardı" tezisi ölkə maraqlarının hər şeydən yüksəkdə durmalı olmasına ciddi siqnaldır. Yeni seçilmiş dövlət başçısının "Mən gözləyirdim ki, prezident mənə 10-15 dəqiqə vaxt ayıracaq, amma bizim düz 90 dəqiqəlik ətraflı fikir mübadiləmiz oldu" mesajı da Barak Obamanın fikrini gücləndirməyə yönələn cavab idi.

*(davamı səhifə 10-da)*

YENİ MÜSAVAT
N 255 (6576) 17 noyabr 2016



# Seçkidən görünən iki Amerika...

Hüseynbala SƏLİMOV

**ABŞ-da seçkinin nəticələri digər düşərgədə tanınsa da, H.Klinton və B.Obama da yeni prezidenti təbrik etsə də, hələ də bununla barışmayanlar, D.Trampın seçilməsinə etiraz edənlər və onu siyasət olimpindən aşağı salmağa və hətta "irqçi prezident"ə siyasi etimadsızlıq göstərməyə çağıranlar da var...**

Etiraz edənləri başa düşmək olar. Cəmiyyətin və elitanın böyük bir kəsimi D.Trampa qarşı birləşmişdi. Bəli, hər şey Hillarinin qələbəsinə yönəldilmişdi: böyük maliyyə vəsaitləri, böyük media strukturları, böyük informasiya resursları, böyük və varlı dövlətlərin başçılarının və xüsusən də nəhəng Avropa ölkələrinin siyasi dəstəyi!..

Hətta prezident B.Obama və onun xanımı da aktiv şəkildə Hillarinin seçki kampaniyasına qoşulmuşdu. Sosioloji sorğular Klintonun reytinqcə çox irəlidə olduğunu iddia edirdi. Üstəlik, bu da azmış kimi, respublikaçı elitanın da bir hissəsi H.Klintonu müdafiə edirdi...

Amma alınmadı və Klinton məğlub oldu... Onun məğlubiyyətinin əsas səbəbləri haqqında ağlımıza gələnləri artıq yazmışıq.

Bəli, H.Klinton və komandası axıra qədər D.Trampa qeyri-ciddi, "böyük siyasətdən uzaq adam" kimi baxdılar və belə bir detalı unutdular ki, onun "qeyri - ciddi" çıxışlarını diqqətlə dinləyən xeyli adam vardır. Hələ bu günün özündə də demokratlar D.Trampın elektoratına açıqca ikrahla yanaşır və onları "irqçilər" adlandırırlar...

Bu xüsusda yekun xarakterli söz deyə bilmərik, sadəcə, bircə detalı vurğulamaq istərdik: cənab demokratlar, bu elektorat da amerikalılardır və Amerikadır, çalışın, onları da görün...

Seçkinin gedişində açıq şəkildə duyulurdu ki, insanlar yenilik gözləyir. Hər şeyə yenidən baxmağa və hər bir şeyi tamam yenidən təftiş etməyə hazır görünən Trampın qarşısında Klinton sadəcə, qatı mühafizəkar siyasətçi təsiri bağışlayırdı...

Bilmirəm, indi Klinton və onun seçki texnoloqları bunların fərqindədir, ya yox? Əgər fərqindədirlərsə, onda görməlidirlər ki, bu gün iki Amerika var və D.Tramp nə qədər "bütün amerikalıların prezidenti olacam" desə də bu narazı kəsim heç cür vəziyyətlə barışmaq istəmir...

Bizə elə gəlir, böyük ehtimalla sonda hər şey stabilləşəcək və cəmiyyət özünün ritmik həyatına qayıdacaq...

Amma seçkilər çox şey dedi və çox şey öyrətdi. Demokratlar onu ciddi şəkildə öyrənsələr gələcəkdə yenə də taleyin xoş üzünü özlərinə qaytara biləcəklər. Öyrənməsələr, onda özlərindən küssünlər!..

Bilirsiniz, dəfələrlə yazmışıq ki, D.Trampı eşidənlər var. İnsanları artıq statik, donuq Amerika bezdiribdir. Bir tərəfdən baxanda, məsələn, niyə də Rusiya ilə yeni münasibətlər haqqında təzə söz deyilməsin? Axı hətta B.Obama da deyirdi ki, Rusiya daha dünya üçün təhlükə ola biləcək qlobal ideyanın (kommunizm!) daşıyıcısı deyil. Deməli, onunla münasibət də bu aspektdə qurulmalıdır...

Yaxud da varlı-karlı Avropa niyə öz təhlükəsizliyi üçün pul xərcləməsin? Axı Avropa da əlli bundan əvvəlki kontinent deyil. İndi bu məkanda elə ölkələr var ki, dünyanın sayılıb-seçilən iki-üç ölkəsindən biri hesab oluna bilər. Onlar da bilməlidir ki, təhlükəsiz həyat üçün də pul ödəmək, özü də yaxşıca pul ödəmək lazımdır...

Başa düşürəm, müəyyən siyasi və geosiyasi arxitektura bərqərar olub və ondan imtina etmək asan məsələ deyildir. Fəqət, həyatda həmişə doğru olan sxemlər də olmur...

D.Trampı dəstəkləyənlərə gəldikdə, onlar da bir Amerikadır. Məsələn, mühacirlər məsələsini götürsək, guya, həmin bu məsələ digər ölkələrdə az çəkişmə predmeti olur?..

Hazırda Avropanın birinci problemi mühacirlər deyilmi?.. Mənə daha çox V.Jirinovskini xatırladan D.Trampı müdafiə etmək kimi alınmasın, amma bu məsələyə əzəldən fərqli münasibətim olub və istisna etmirəm ki, burada yanıla da bilərəm...

Öz ölkələrində elementar qayda-qanun yaratmaq üçün azacıq da olsa, özünə əziyyət vermək istəməyən insanlar Avropaya və Amerikaya qaçır, orada yüz illərlə çətinliklə qurulub-yaradılan sərvətə və ya həyata ortaq olmaq istəyirlər...

Maraqlı sual yaranır: bəs bu adamların öz ölkələrini kim qurub-düzəldəcək? Bəli, ABŞ əvvəldən mühacirlər ölkəsi olub. Bunu hələ uşaq da bilir. Amma artıq bir Amerika milləti deyilən, ortaq dəyərləri bölüşən toplum yaranıb. Onlar özlərini nəinki ingilis, heç avropalı da saymırlar, "amerikalıyıq" deyirlər!..

Ona görə də ABŞ demokratları öz cəmiyyətlərinə daha diqqətlə yanaşmalıdırlar. Məgər doğru deyilmi ki, ABŞ-a gələn bu mühacir selinin heç də hamısı mələk deyildir?!. Onların çoxu tamam fərqli dünyagörüşün, həyat təcrübəsinin və ictimai mentalitetin daşıyıcısıdır...

Bu səbəbdən də cənab demokratlar zəhmət çəkib Trampın elektoratını öyrənsinlər. İnanın, burada öyrəniləsi çox şey var...



# ABŞ-da prezident seçkiləri: niyə Tramp? - Ərəstun Oruclu Vaşinqtondan yazır

**ABŞ siyasəti tədricən öz ənənəvi siyasi etika çərçivəsinə qayıdır və bunun hər iki prezident səviyyəsində bu şəkildə nümayiş etdirilməsi həm də seçkilərin nəticəsini qəbul edə bilməyənlər üçün çox zəruri mesaj idi. Demokratlar Partiyası artıq struktur islahatlarına başladı və bu işdə senator Sanders əsas liderlərdən biri kimi görünür. Sandersin təklifinin nəzərə alınacağı halda Demokratlar Partiyasının rəhbərliyinə Minnesotadan olan afroamerikalı konqresmen Keith Ellisonun gətiriləcəyi gözlənilir. Ellison həm də Konqresin ilk müsəlman üzvüdür. Bu, təkcə partiyanın keyfiyyətcə yenilənməsi deyil, həm də cəmiyyətdə baş qaldırmağa cəhd edən ayrı-ayrı irqçi, ksenofob, antisemit və islamofob meyllərə ciddi xəbərdarlıqdır. Görünür, ideyanın müəllifləri həm də demək istəyirlər ki, biz Amerika dəyərlərini kimlərinsə bölücü baxışlarına qurban vermək fikrində deyilik. Bəli, Amerikada yaşayan bütün insanları amerikalı edən də elə həmin dəyərlərə hörmət və riayət etmələridir.**

*(əvvəli səhifə 9-da)*

Sonra nə olacaq? İndi bu sual çoxlarını düşündürür. Əslində, heç nə baş verməyəcək, çünki bütün baş verməli olanlar artıq baş verib. Dünya bir gündə dəyişdi. Bəlli oldu ki, seçicilərin iradəsini anlamayan, onların istəklərini görə bilməyən siyasi idarəçilik modeli ağır məğlubiyyətlə üzləşə bilər və bu baxımdan da Avropanın demokratik dövlətlərindən tutmuş avtoritar-antidemokratik rejimlərin mövcud olduğu ölkələrədək hakim zümrələrdə yaşanan diskomfort anlaşılandır. Deməli, uğursuz modelin demontajı hələ davam edəcək. ABŞ seçkilərindən çıxan əsas nəticəni heç kəs səsləndirmək istəməsə də, zənnimcə, hər kəs çox yaxşı anlayır. Nəticə isə budur: istənilən siyasi idarəçilik modelində bütün ictimai-siyasi proseslərdə daim mövcud olan bir tərəf də var ki, onun fəal iştirakının və maraqlarının təmin olunmaması ciddi fəsadlara yol açır. Sadəcə bir fərqlə ki, demokratik və hüquqi şəraitdə həmin tərəf öz iradəsini seçki yolu ilə həyata keçirə bilirsə, bu hüquqlardan məhrum olunduqda o, iradəsini zorakı yollarla reallaşdırır. Deməli, ənənəvi yanaşmalardan ayrılıb həmin tərəfi nəzərə almaq, onu dinləmək və onun ayağına getmək lazım olacaq. Əks halda, formasından asılı olmayaraq məğlubiyyət qaçılmaz olacaq. ABŞ-da olduğu kimi. Demokratlardan əsas kürsünü, respublikaçılardan isə az qala bütün sosial bazanı alan Donald Tramp prezident oldu, Hillari Klinton isə ola bilmədi və bunlara dair əsas qərarları verən Amerika seçicisi, yəni Amerika xalqı oldu. Bu mübarizədən yeganə qalib çıxan tərəf də elə odur. Deməli, qalib həm də Amerika demokratiyası və ABŞ dövləti oldu, çünki Amerikanın "atalarının" təsəvvür etdikləri və yaratmağa çalışdıqları güclü dövlət konstitusion hüquq və azadlıqları təmin olunmuş özünə inamlı vətəndaşın çiyinlərində dayanan dövlətdir.

***P.S.*** Zənnimcə, 8 noyabr seçkiləri saxtakarlığın hakim kəsildiyi ölkələrdə tez-tez səsləndirilən "ABŞ-da da seçkilər saxtalaşdırılır" kimi iddialara da net cavab oldu. Yuxarıda qeyd elədiyim kimi, Donald Trampın prezident seçiləcəyini özü də daxil olmaqla, heç kəs gözləmirdi və həm siyasi, həm də iqtisadi elitada mütləq əksəriyyət arzulamırdı da. Amma seçici iradəsi öz sözünü dedi. ABŞ seçicisi göstərdi ki, özünün də, ölkəsinin də taleyinin həllində əsas söz sahibi O-dur. Seçki günü Virciniya ştatında səhər saat 6-da açılmalı olan seçki məntəqələrinin qarşısında yarım saat əvvəldən növbəyə düzülmüş yüzlərlə seçicini görəndə artıq buna heç bir şübhəm qalmamışdı. Bu da təsadüfi deyildi ki, Donald Trampın seçki kampaniyasında səsləndirdiyi "Mən yalnız qalib gəlsəm seçkilərin nəticələrini qəbul edəcəyəm!" bəyanatı ABŞ-ın həm respublikaçı, həm də demokrat siyasi dairələrilə yanaşı, sadə amerikalılarda da hiddət doğurdu. Ölkənin fundamental dəyərlərindən olan azad və ədalətli seçkini şübhə altına almaq başqa reaksiya doğura bilməzdi də.

**Ərəstun Oruclu,**
**xüsusi olaraq "Yeni Müsavat" üçün**

# "Kremlin yerində otuzdurulması prosesi davam edəcək"

## Qabil Hüseynli: "Rusiyanın küncə sıxışdırılması işinin uğurla başa çatdırılacağına inanıram"

**Son aylarda Qərb-Rusiya arasındakı qarşıdurmalarda rəsmi Moskvanın üstünlüyü nəzərə çarpır. Rəsmi Moskva digər dövlətlərdə hakimiyyətləri müəyyən edə bilir, özünə yaxın liderlər prezident edilir...**



Oktyabrın əvvəllərində qonşu Gürcüstanda keçirilən seçkilərdə Putin Rusiyası rusiyameyilli hakimiyyətin nəinki qələbəsində mühüm rol oynadı, hətta hazırkı gürcü hakimiyyətinə əsas alternativ müxalifət olan, Qərbin ən yaxın adamı sayılan keçmiş prezident Mixail Saakaşvilinin mövqelərinə sarsıdıcı zərbə endirdi. Bu proseslər Moldova və Bolqarıstanda da davam etdi...

Noyabrın 8-də ABŞ-da keçirilən prezident seçkilərində də Rusiyaya daha çox sərf edən namizəd, seçkiöncəsi Rusiya ilə əlaqələrə önəm verəcəyini deyən Donald Tramp Amerikanın dövlət başçısı oldu.

Bütün bu amilləri nəzərə alaraq, Qərbin son iki ildə sanksiyalarına dirəniş göstərən və son zamanlar tükənən Putin Rusiyasının "kəfəni yırtdığı" görüntüsü yaranır. Siyasi şərhçilər də son aylarda Rusiyanın xarici siyasətdə ciddi uğurlar qazandığını və Qərblə siyasi mübarizədə gücləndiyini düşünürlər.

**Politoloq Qabil Hüseynli yuxarıda qeyd etdiyimiz amilləri Rusiyanın nisbi üstünlüyü sayır:** "Moldova və Bolqarıstan kimi ölkələrdə solçular daim güclü olurlar. Əhali arasında da onlara meyl hər zaman olur. Moldovanın yerləşdiyi bölgənin taleyini Rusiya ilə həll etməsi mümkün deyil. Bolqarıstan haqqında da eyni şeyləri demək mümkündür. Bolqarıstan Avropa Birliyinə üzv olmaq üçün cəhdlər edir. Lakin onun üçün qoyulmuş kriteriyalara əməl etmir. Ölkədə islahatlar həyata keçirilmir. Moldova və Bolqarıstan güclərini Rusiyaya qatmaq fikrində deyillər. Sadəcə manevr etməklə müəyyən mövqelər qazanmaq, əhalini Rusiyaya meylləndirməyə çalışırlar. Rusiyanın özünün vəziyyəti getdikcə ağırlaşır. Çünki Rusiyaya qarşı sanksiyalar azaldılmır, əksinə, Avropa bu ölkəyə qarşı tətbiq etdiyi sanksiyaları gücləndirmək niyyətindədir. Tramp Rusiyanın xeyrinə açıqlamalar versə də, Putinlə telefon danışıqlarında heç şübhəsiz ki, başqa söhbətlər aparır. Tezliklə onu da öz yoluna qoyacaqlar. Rusiyanın öz yerində otuzdurulması prosesi bundan sonra da davam edəcək".

**Politoloq Rusiyanın daxilində də ciddi proseslərin getdiyini söylədi:** "İqtisadiyyat naziri artıq həbs edilib. Dövlət Ehtiyat Fondu da getdikcə tükənir. Rusiyada sənayedə demək olar ki, hər hansı bir irəliləyiş yoxdur. Rusiya çəpərinin genişlənməsini demək mümkün deyil. 2017-ci il bütün dünya üçün ağır il olacaq. Amma Rusiya üçün daha çətin il olacaq. Çünki iqtisadiyyatda hər hansı bir irəliləyişə nail ola bilmədiyindən, xüsusilə Qərbin neft və qazla bağlı mövqeyinə görə, Rusiyanın gəlirləri nəinki artacaq, əksinə, daha təhlükəli duruma gələcək. Bütün bunlara görə, Rusiyanın Qərblə qarşıdurmasında qabağa çıxmasını demək mümkün deyil. Bundan əlavə, Suriya hadisələrində Rusiya ciddi zərbə ala bilər. Mosul Amerikanın köməyi ilə İŞİD-dən təmizləndi və Rakkada əməliyyatlar gedir. Bu şəhər də yəqin ki, ABŞ və ona yaxın qüvvələr tərəfindən azad ediləcək. Bundan sonra qalacaq Suriya problemi ki, bu da Trampın öhdəsinə buraxılacaq. Əgər o, Rusiyanın xeyrinə siyasət yürütsə, yaxud Rusiya ilə birlikdə bu problemi həll etmək üçün hərəkət etsə, o zaman Amerika Yaxın Şərq və ərəb dünyasını itirmiş duruma düşə bilər. Bu amillər Trampın taleyində çox mühüm mənfi rol oynaya bilər. Düşünürəm ki, hakimiyyətə gələn Trampla seçkiöncəsi populist çıxışlar edən Tramp arasında ciddi fərqlər olacaq. Amerika elə bir dövlətdir ki, prezidentə tam müstəqil qərarlar qəbul etməyə imkan vermir. Oturuşmuş dövlətdə sistem işə düşəndə prezident ciddi təşəbbüslərə malik olmur. Rusiyanın küncə sıxışdırılması prosesinin uğurla başa çatdırılacağına inanıram".

❑ **Cavanşir ABBASLI**

**Qarabağ konfliktinin həllində daha bir illik fürsət əldən çıxdı. Ötən illərdəki kimi, yenə başlıca səbəb əlbəttə ki, aparıcı güclərin məsələyə ikili standart prizmasından baxması, Ermənistana işğalçı kimi yanaşmaması ilə bağlıdır. Son olaraq, bu barədə bir daha Azərbaycan prezidenti Ilham Əliyev Bakıda Dünya Xəbər Agentlikləri V Konqresinin, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) XVI Baş Assambleyasının birgə açılış mərasimindəki çıxışı zamanı danışıb.**




Dağlıq Qarabağın Azərbaycanın əzəli torpağı olduğunu bir daha xatırladan ölkə başçısı deyib: "SSRİ dövründə Azərbaycanın muxtar vilayəti olan Dağlıq Qarabağ və 7 rayon işğal edilib, 1 milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Ermənistan tərəfindən etnik təmizlənmə aparılıb. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsində işğalçı erməni qoşunlarının işğal edilmiş ərazilərdən çıxarılması tələbi qoyulub. Ancaq Ermənistan bu tələbləri vecinə almır. Bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün ərzində yerinə yetirilir, amma bizim məsələ ilə bağlı 20 ildən çoxdur uzanır. Bu, Azərbaycana ikili standartların tətbiqindən xəbər verir. Təhlükəsizlik Şurasının qətnamələrinin icrası ilə bağlı mexanizmlərə baxılmalıdır...

İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və Avropa strukturları da oxşar qərarlar qəbul edib. Lakin Ermənistan həmin sənədlərə də məhəl qoymur. İşğal olunmuş ərazilərdə məscidlər, abidələr dağıdılır. ATƏT-in göndərdiyi iki faktaraşdırıcı missiyanın hesabatları da bunu təsdiqləyib. Bakıda isə erməni kilsəsi mühafizə olunur".

**Dövlət başçısı bir daha vurğulayıb ki, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır:** "Çünki Azərbaycanın ərazi bütövlüyü digər ölkələrin ərazi bütövlüyü qədər dəyərlidir. Keçmiş sovet məkanında münaqişələrin ərazi bütövlüyü çərçivəsində həlli prinsipi Dağlıq Qarabağ münaqişəsinə də tətbiq edilməlidir".

*****

Bu arada Ermənistanla onun əsas havadarı Rusiya arasında vahid ordu yaradılması ilə bağlı məsələ Azərbaycanda da ciddi müzakirə mövzusudur. Söhbət öncəliklə belə bir hərbi qruplaşmanın hansı zərurətdən doğmasından, regiona və Dağlıq Qarabağ məsələsinə nə vəd eləməsindən gedir. Bu xüsusda şərh və rəylər müxtəlifdir.

**"Rusiya və Ermənistanın vahid ordu birləşmələrinin yaradılması ilə bağlı qərar xeyli müddətdir aparılan danışıqların nəticəsidir". Deputat Zahid Oruc axar.az-a belə deyib. Onun sözlərinə görə, aprel döyüşlərindən sonra Rusiya belə mövqe tutmaqla ermənilərin etirazlarını neytrallaşdırmağa çalışır və bu addım Ermənistanın təhlükəsizliyinin bütövlükdə Rusiyanın əlinə keçməsi, şimal bölgəsindəki 66-cı ordunun böyük kontingentinin hər an Ermənistan üçün ayağa qalxması ilə bağlı suallara aydınlıq gətirib.**

"Sözügedən qərarı az qala vahid dövlət anlamında qəbul etmək çox yanlışdır. Bu gün Rusiyanın Ermənistan üzərində güclü nəzarəti var və təkcə Gümrüdəki hərbi baza deyil, oradakı hərbi təhsil, siyasi elitaya bütövlükdə nəzarət bu ölkənin bütün hərəkətlərini diktə etməyə imkan verir. Ermənilər hər zaman çalışıblar ki, ruslar onların əvəzindən Qarabağda vuruşsunlar. Bunun üçün də sözügedən sənədi Rusiya-Azərbaycan münasibətlərini korlamaq üçün yetərincə təbliğ edəcək, böyük ehtimalla, bu mənada Azərbaycan və Türkiyəni oxşar addımlar atmaq üçün stimullaşdırmağa çalışacaqlar" - deputat qeyd edib.



# Türkiyə ilə vahid ordu - niyə də olmasın?

## İrəvan-Moskva hərbi əməkdaşlığının yeni formata keçməsi iki qardaş ölkəni analoji addım atmaq zorunda qoyur; Baki bir daha beynəlxalq birliyi ikili standartların tətbiqində suçladı; **erməni analitik:** "Rusiya vassalının Qərbə ümid etməsinə dəyməz..."

**Onun fikrincə, Azərbaycan üçün önəmli olan Rusiya ilə hazırkı dövrdə formalaşan yüksək səviyyəli əlaqələrin qırılmamasıdır:** "Ermənilər məhz bunu arzulayır. Onlar yenidən Bakı ilə Moskva arasında siyasi konfrontasiyadan istifadə edib, Qarabağda Rusiya ordusunu yerləşdirməyə və bununla da azərbaycanlıları səngərdə ruslarla üz-üzə qoymağa cəhd edəcəklər. Bu yolverilməzdir. Rusiyanın sözügedən qərarı qəti şəkildə Azərbaycan ərazilərinin işğalda saxlanılması üçün ermənilərə hərbi yardım və ya onların yerinə vuruşmaq anlamına gəlmir. Ruslar bu dönəmdə Qarabağda ermənilərinin əvəzindən savaşmayacaqlar".

Zahid Oruc bu kontekstdə Azərbaycan və Türkiyə arasındakı hərbi razılaşmaların nə dərəcədə rol oynaya biləcəyinə də münasibət bildirib: "Əgər Rusiyanın atdığı addımlar daha böyük hədəflərə yönəlibsə, yeni təkcə Türkiyə deyil, eyni zamanda NATO əleyhinə prosesdirsə, bu, regionda hərbiləşmə prosesini daha da gücləndirəcək və ayrı-ayrı ölkələri alternativlər axtarmağa vadar edəcək. Türkiyə və Azərbaycan arasında ortaq ordunun yaradılması məsələsi parlamentdən də səsləndirilib. Bu, bir tərəfdən qabaqcıl bir NATO dövlətinin təcrübəsini əxz etməyə imkan verəcək, başqa bir tərəfdən isə Türkiyə və Azərbaycan vahid təhlükəsizliyi yönündə birgə addımlar atmaq imkanında olacaq. Türkiyənin bölgədə xüsusi olaraq hərbi maraqları var və bu, inkarolunmazdır. Hətta Gürcüstan və Azərbaycan Ermənistanın bu addımı qarşılığında başqa ölkələrlə oxşar hərbi birləşmələr yarada bilərlər".

*****

**Ermənistanda isə müstəqil ekspertlər vahid ordu (qruplaşma) məsələsini daha çox bu ölkənin Rusiyadan artan asılılığı kontekstində şərh etməkdədirlər. O sırada Lragir.am-ın siyasi şərhçisi İqor Muradyan yazır:** "Son illər Ermənistan Rusiya vassallığının çoxlu şərtləri ilə, xüsusən də hərbi sferaya aid şərtləri ilə razılaşıb. Ermənistan hətta öz silahlı qüvvələrinin Rusiya ordusu tərkibinə daxil edilməsinə razılıq verib. Bununla da qəti olaraq öz suverenliyini itirib".

**Erməni təhlilçinin sözlərinə görə, Ermənistan indi təkcə NATO-nun deyil, həm də ABŞ-ın rəqibi qismində olacaq:** "Erməni hökuməti və hərbçiləri hələ özləri üçün təsəvvür edə bilmirlər ki, NATO və ABŞ-ln rəqibi statusunda olmaq nə deməkdir". O əmindir ki, bundan sonra Ermənistan təkcə ABŞ-ın deyil, alyansın digər üzvlərinin də maliyyə və ya hərbi-texniki köməyinə ümid bəsləyə bilməyəcək: "Ermənistana təklif edilən imkanları hələ uzun müddət və böyük təəssüflə xatırlamalı olacağıq".

**Muradyanın fikrincə, Dağlıq Qarabağ məsələsi ilə bağlı ABŞ hər iki münaqişə tərəfinə dinc birgə mövcudluqla bağlı birdəfəlik layihənin gerçəkləşməsinə girişəcək:** "Əgər bu dəfə də şərtlər rədd edilsə, Azərbaycan və Ermənistan seçdikləri şərtlər daxilində qalacaq. Ermənistan qarşısında isə olduqca konkret bir şərt qoyulacaq: ya o, Rusiyaya tabe olmaqda davam edir, ya da Şimali Atlantika alyansının rəqibi olur. Özü də bu mövzuda amerikanlar uzun müddət danışmayacaqlar, hər şey iki-üç görüşlə bitəcək. Amerikanın Ermənistana iqtisadi yardımı nəinki məhdudlaşacaq, o tamamilə dayanacaq. Rusiya vassalının Qərbə, bütövlükdə Qərb toplumuna ümid etməsinə dəyməz. Bu şərtlər altında ehtimal eləmək olar ki, ABŞ üçün regionda Gürcüstan və Azərbaycanın tərəfdaş olması kifayət edəcək. Ermənistan isə yazıq rus müstəmləkəsi olmaq nəsibi ilə kifayətlənməli olacaq - hansı ki, dünya siyasətində ən yaxşı halda unudulacaq".

**Erməni ekspert sonda sual edir:** "Ermənistan öz taleyini seçmək üçün şansa malikdirmi? Belə təəssürat yaranır ki, artıq yox. Ermənilər göstərdilər ki, onların iradəsi və talantları yoxdur. Ermənistan NATO-nun rəqibidir. Demək, demokratik, sivil dünyanın da rəqibidir".

*****

Ermənistanın birmənalı şəkildə Kremlin vassalına çevrilməsi, o sırada "vahid ordu" adı ilə işğalçı ölkənin silahlı qüvvələrinin xeyli dərəcədə Rusiya tabeçiliyinə verilməsi əslində heç bir bloka qoşulmayan Azərbaycan üçün də yeni bir fürsət yaradır. Söhbət ən əvvəl qardaş ölkə ilə ortaq silahlı birləşmələrin yaradılmasından gedir. Bir millət - iki dövlətiksə, niyə də bir ordu - iki dövlət olmayaq ki?

Bunu həmçinin region və onun ətrafında gedən və getdikcə mürəkkəbləşən təhlükəli proseslər diktə edir. Vahid ordu olmasa da, ən azından, ortaq təhlükəsizlik məsələsi Türkiyə və Azərbaycana hərbi əməkdaşlığı yeni səviyyəyə qaldırmağı diktə edir. Həm də ləngimədən.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 255 (6576) 17 noyabr 2016



# Korrupsiyaya dair məlumatın olmadığı ölkədə sorğu

Samir SARI

**Belə bir xəbər var: sorğu keçiriblər, rəyi soruşulan respondentlərin 45%-i Azərbaycanda korrupsiya səviyyəsinin tədricən azaldığını bildirib. Bilmirəm, bu, ləğv edilmiş MTN-in sabiq idarə rəisi Akif Çovdarovun və digərlərinin vəzifədən götürülməsi və həbsi ilə bağlıdır, yoxsa başqa şeylə.**

Zarafat deyil, iş və vəzifə adamlarını aparıb MTN kimi əjdaha bir qurumun zirzəmisinə (razıyam ki, "padval" daha effektiv çıxır) basan, onlardan xərac alan, maliyyə maxinasiyalarına göz yuman, bununla da onların korrupsiyayla daha ürəkdən məşğul olmalarına şərait yaradan bir xeyli generalı qandallayıblar.

Hazırda onların özünün ölkənin ən böyük korrupsioneri olduqları aydınlaşıb. O gün birinin mal-mülkünün siyahısını vermişdilər, adam multmilyonçu imiş. Sovet dövründə eyni vəzifəni tutan, hazırda pensiyadan başqa bir qazancı olmayan istefada olan general o sərvəti görsə, ürəktutmasından ölməsə də, "kül mənim başıma" deyə öz başına endirdiyi qapazın ağrısının şokundan ölə bilərdi.

İndi o adamlar içəridədir və onların yerlərini tutanlar isə hələ ki o cür işlərlə məşğul deyillər. Olsalar, xəbərləri çıxardı. Gələcəyi isə bilmək olmaz. Çünki iştah diş altındadır.

Görünür, elə buna görə korrupsiyaya dair sorğunu cavablandıran iştirakçıların 24%-i hökumətin korrupsiyaya qarşı səylərindən razıdır. Razı olmayanlar isə azlıq təşkil edir, cəmi 15 faiz. Bu suala cavab verənlərin 60%-i isə ya çox qorxaq adamlardır, ya da bu günlərdə Yerə maksimum şəkildə yaxınlaşmış Aydan gəliblər. Çünki onlar deyiblər ki, ölkədəki korrupsiya barədə suala cavab vermək üçün kifayət qədər məlumata malik deyillər.

Riyakarlar! Yəni siz küçəyə çıxmırsınız? Küçələrdə ora-bura şütüyən superbahalı avtomobilləri ("Mersedes Galenvagen", "Ferrari", "Porşe", "Lambargini", "İnfiniti", "Roll Roys" və s.) görmürsünüz? Sizcə, bizneslə məşğul olması yasaq olan məmurlar və məmurzadələr (yəni onların züryətləri) o 200 minlik maşınları nəylə tədarük ediblər? Bəlkə 1500-2000 manatlıq aylıq maaşla?

Hələ şəhərin mərkəzindəki və ətraf qəsəbələrdəki, eləcə də ölkənin yaşıllıqlı rayonlarındakı superbahalı villalardan danışmırıq. Sayları minlərlədir. Seyfində möhürü-ştampeli olan hər kəsin bahalı maşını da var, villası da. Hamısı da gözlə görünür, amma ölkədə korrupsiyaya dair rəyi soruşulanların 60 faizi deyir ki, vallah, bu barədə informasiyamız azdır.

Beləsi ilə bir xeyir-şər məclisində qonşu ol, sənə düz bir saat tanıdığı məmurların mal-mülkündən, obyektlərindən danışacaq, hətta oturub yemək yediyiniz şadlıq evinin hansı məmura məxsus olduğunu bilib-bəlmədiyini soruşacaq, sən bilməyəndə o, gözlərini hər şeyi bilən FTB direktoru Ceyms Komi kimi qıyaraq ağıllı görkəm alıb deyəcək: "Filankəsindir, bir restoranı da Nizami rayonunda var, biri də filan rayonda". Amma bunu deyən hərifin ölkədəki korrupsiyadan xəbəri yoxdur, ən pisi də odur ki, o, bu restoranların və digər ticarət, xidmət obyektlərinin sahibi olan məmuru "təmiz adam" hesab edir.

Heç demə, respondentlərin cəmi 21%-i inanır ki, dövlət sektorunda korrupsiya ciddi problemdir. Yerdə qalan 79 faizin fikrincə, dövlət sektorundakı korrupsiya qeyri-ciddi problemdir, yəni boş şeydir, olan şeydir, ona qalsa, korrupsiya ABŞ-da var. "Guya Almaniyada korrupsiya və rüşvətxorluq yoxdur?", - deyə əks sual verəcəklər və özlərini qalib durumda sayacaqlar.

Budur, Rusiyada iqtisadiyyat nazirini, bizim camaatın sözü olmasın, "ikicə milyon dollar" rüşvət aldığına görə tutublar və deyirlər ki, guya korrupsiyaya qarşı mübarizə aparırlar.

Biz o filmə öz ölkəmizdə bir dəfə baxmışıq. Yadınızdadırsa, 11 il öncə bizdə də iqtisadiyyat nazirini tutmuşdular. Qəzetlərdə iki qoşa səhifədə malik olduğu obyektlərin siyahısını verdilər. Amma bu boyda haqq-hesabdan sonra ölkədə korrupsiya yenə azalmadı. Hətta sonrakı iqtisadiyyat nazirini də az qala tutacaqdılar, amma tutmadılar, eləcə bir sıra obyektlərinə əl qoydular.

Açığı, belə görünür ki, korrupsiya ilə mübarizə aparmağın xeyri yoxdur, sadəcə yaponlar zəlzələ ilə yanaşı yaşamağı öyrəndikləri kimi, biz də gərək korrupsiya ilə yanaşı yaşamağı öyrənək. O yan-bu yan eləsək, korrupsiya bizi məhv edər, salamatı dinc durmaq, "korrupsiya barədə məlumatımız yoxdur" deməkdir.

# "Əmin olmalıyam ki, Azərbaycanda lazımam"

## Cavanşir Quliyev: "Hər an ayaqqabımı geyinib, hava alanına qaçıb, təyyarəyə minib gəlməyə hazıram"

**Şimali Kipr Türk Cümhuriyyətinin yaranmasının 33-cü ildönümü münasibətilə keçirilən qəbulda Azərbaycan musiqisinin dəyərli nümayəndələrindən biri olan bəstəkar Cavanşir Quliyevi görmək çox xoş oldu. Tədbirin rəsmi hissəsinin ardınca pianino arxasına keçib türk Kiprindən gəlmiş sənətçini müşayiət etdi və musiqi bitəndən sonra fürsət düşmüşkən, sənətkara bəzi suallar ünvanladıq.**

*Amma əhvalından görünürdü ki, o, salondakı səs-küy səbəbindən ifasına umduğu diqqəti görə bilmədiyindən bir az pərişan olub. Sözarası bunu özü də söylədi. Beləliklə, 300-ə yaxın teatr və televiziya tamaşalarına, 8 bədii və 25 sənədli filmə musiqi bəstələmiş, 1000-ə yaxın mahnının müəllifi olan, 2005-ci ildən Şimali Kipr Türk Respublikasındakı Yaxın Doğu Universitetinin səhnə sənətləri fakültəsində musiqi dərsi deyən Cavanşir Quliyevlə söhbətimizi təqdim edirik:*

***- Cavanşir bəy, yəqin ki, Azərbaycana gəlişiniz Şimali Kiprin müstəqillik günü ilə bağlıdır. İllərdir ki, Kipr türkləri ilə bərabərsiniz və sizi Şimali Kiprin fəxri vətəndaşı da hesab etmək olar. Bu günün önəmi barədə nə deyə bilərsiniz?***

- Çox önəmli bir gündür. Özü də tək Kipr üçün yox, bütün dünyada yaşayan türklər üçün önəmli gündür. Çünki türk millətinin bir qəhrəman parçası artıq 33 ildir dövlət yaradıb və dövlətin bütün atributları orda işləyir. Həmçinin türk qardaşlarımız dünyaya sübut edirlər ki, Quzey Kıprıs adında bir dövlət var. Hesab edirəm ki, bu, qəhrəmanlıqdır. Bizim indiki Qarabağ olayları çərçivəsindən baxdığımızda bizimçün örnək olası bir şeydir. Yəni torpağı necə geri almağın və necə qorumağın örnəyidir. Onunçün də mən çox qürurluyam və ömrümün bu yaşında xoşbəxtəm ki, orda o insanlarla hər gün görüşürəm. Onların hər biri bir qəhrəmandır.

Hər an orda yenə savaş, savaş başlaya bilər və bu təhlükə var. Lakin buna baxmayaraq, yaşayırlar, dövlətlərini qoruyurlar, müdafiə edirlər, dünyaya da sinə gəlirlər. Yəni bütün bu embarqolara, təzyiqlərə baxmayaraq, ölkə ayaqda durur, yaşayır, hətta inkişaf edir.

***- Siz cəmiyyətin içindəsiniz. Rəsmi mövqe bəllidir, bəs Kiprin sadə vətəndaşlarının Azərbaycandan istəkləri nədir?***

- Məncə, Azərbaycan dövləti əlindən gələn hər cür yardımı edir. Açıq da edir, pərdəarxası yardımlar da var. Ona görə də bizdən razıdırlar, bizi çox sevirlər. Şəxsən məndən tələbələrim razıdır (gülür). Onların bütün türklərdən istəyi bir dənədir ki, "bizi tanıyın!"

***- Tanınmaq asan məsələ deyil axı...***

- Azərbaycan üçün bir az problem var - Qarabağ məsələsinə görə. Amma başqa türk dövlətləri tanıya bilər. Məncə, problem yoxdur. Pakistan tanıyıb və orada Quzey Kıprısın təmsilçiliyi yox, səfirliyi var. Yunanıstan BMT-yə şikayət etdi deyə, birbaşa təyyarə reysinin açılması da reallaşmadı. Azərbaycan üçün problemlər yarana bilərdi. Çünki Qarabağ məsələsi həll olunmayıb, durumumuz təhlükəlidir. Amma başqa dövlətlər tanıya bilərdi.

***- Cavanşir bəy, artıq 10 ildən çoxdur Şimali Kiprə köçmüşünüz...***

- Hə, artıq 11 ildir.

***- Yaş üzü 70-ə doğru gedir. Günün birində Azərbaycana dönmək, burada çalışmaq istəmirsiniz ki?***

- Vallah, mən həmişə, hər an ayaqqabımı geyinib, hava alanına qaçıb təyyarəyə minib gəlməyə hazıram. Amma mən əmin olmalıyam ki, burada lazımam.

***- Amma lazım olduğunuz hər zaman hiss olunur. Yeriniz görünür, sizin ifanızda retro mahnıları səslənir, bəstələriniz eşidilir...***

- Çox adam belə deyir. Hətta bəzi vəzifə sahibləri qayıtmağımı istəyirlər. Mən də deyirəm ki, həqiqətən lazım olduğuma özüm əmin olmalıyam. Söhbət iş yerində deyil. Mənim peşəm var, önəmli iş yerim də heç vaxt olmayıb. Amma mən musiqiçi olaraq burda lazım olduğumu hiss etməliyəm, onu hiss etmirəm. Gördünüz, bu gün də biz çaldıq, oxuduq, amma kimsə dinləmədi.

***- Bu da var ki, sizin kimi sənətkarların kənara çəkilməsi, ölkədən getməsi böyük bir boşluq yaradır və bu boşluqdan da özlərini "ulduz", "bəstəkar" adlandıranlar istifadə edir. Razısınızmı?***

- Hə, düzdür. Onu cəmiyyətin xəstəliklərindən biri adlandırmaq olar.

***- Sənət adamı olaraq Azərbaycan musiqisinin durumu sizi narahat edirmi?***

- Yox, ümumi şəkildə narahatlıq yoxdur. Mən həmişə deyirəm ki, baxın, 100 il öncə Azərbaycanın dövləti olmayıb və musiqimizin qorunması deyilən bir şey də olmayıb. Amma musiqimiz olub, yaşayıb və gəlib bu günümüzə çıxıb. Bəziləri deyir ki, dövlət gərək musiqini qorusun. Mən də deyirəm ki, dövlətin musiqi ilə heç işinin olmaması lazımdır. Dövlətin dövlət işləri var, musiqi öz-özünə yaşayacaq. Əgər keyfiyyətlidirsə, dəyərlidirsə, yaşayacaq, onu öldürmək mümkün deyil. Ona görə elə bir əndişəm yoxdur. Amma mənim peşəmlə, bəstəkarlıqla bağlı içimdə qeydlərim var, o da oxucuya maraqlı olmaz. Çünki dar çərçivənin müzakirə mövzusudur.





### "Mən Elza Seyidcahanı yox, onu efirə buraxanı günahkar sayıram"

***- Konkretləşdirmək istəmirəm. Amma deyək ki, Elza Seyidcahan bəstəkar-müğənni statusunda efirə çıxır və hətta dövlət himnini də istədiyi kimi oxuyur. Belələrinə deməyə sözünüz varmı?***

- Mən onu günahkar hesab etmirəm, onu efirə buraxanı günahkar sayıram. Gedin onlardan yapışın. O qız elədir də...

***- Azərbaycan efirini izləyirsinizmi?***

- Yox, izləmirəm. Əslində artıq efir izləməyə vaxtım yoxdur. Ömrün böyük hissəsi geridə qaldı. İrəlidə planlar var, onları eləmək lazımdır, vaxt isə yoxdur.

***- Yeni mahnılarınız varmı?***

- Var. Mahnı da var, başqa əsərlər də. Orda 3 balet, oratoriya yazdım. Burdan gedəndə oratoriyanı Ankaraya aparacağam ki, sifarişçiyə göstərim.

***- Azərbaycanda təqdimatı olmayıb...***

- Hələlik yox. Onunçün mən burda olmalıyam. Çünki elə olur, məşq vaxtı bir çox şeylər dəyişə bilir. Mən olmasam, bu halda kənara qoyacaqlar.

***- Müharibə vəziyyətində olan ölkədə yeni hərbi mahnılar, marşlar niyə yazılmır?***

- Mən bir neçə dənə yazdım. Müxtəlif səpkili əsərlər idi. Amma məncə, savaşı musiqi udmaz, savaşı güllə udur. Ona daha çox diqqət ayırmaq lazımdır. Əsgər marşları savaş fasiləsində çalınır, savaş vaxtı çalınmır (gülür). Amma var. Mən bir dəfə saydım, Azərbaycanda 700-ə yaxın hərbi vətənpərvərlik əsərləri yazılıb, simfoniyadan tutmuş, mahnılara qədər. İndi bunu doğru-düzgün təbliğ etsələr, məncə, bəs edər. Kifayət qədərdir.

***- Azərbaycan uzaqdan, o yaşıl adadan baxanda necə görünür?***

- Azərbaycan kənardan görünmür. Adadan da görünmür. Narahatlıq budur. Cəmiyyət dəyişib. Mən hər dəfə tətilə gələndə bu dəyişikliyi hiss edirəm. Ancaq mənim arzuladığım cəmiyyətə doğru yox... İçimdə o əndişə var. Bəziləri bunu yaşla da bağlayırlar ki, nəsillər bir-birini bəyənmir. Belə bir şey də ola bilər. Amma ümumilikdə toplum, cəmiyyət mənim arzuladığım deyil.

***- Deməli, vətən sarıdan bir az da bədgümansınız...***

- Nə bilim. Elə də bədgüman deyiləm. Amma bir şeir var: "Sənə səndən şikayətim var". Arada elə bir vəziyyətim olur. Sənətlə, mədəniyyətlə, ədəbiyyatımızla bağlı son zamanlar elə hətta gülməli olaylar baş verir ki, deyirsən, Allah, Allah, bu cəmiyyət anlamırmı niyə belə edir? Qayıtmağımla bağlı soruşdunuz. Bu, bununla da bağlı məsələdir. Cəmiyyətin durumu mənim bura qayıtmağıma, türklər demiş, müsaid deyil. Belə...

❑ Elşad PAŞASOY
FOTO: "YM"

YENİ MÜSAVAT
N 255 (6576) 17 noyabr 2016

# Azərbaycanda siyasi partiyaların ideologiyaları...

## Kim uğuru hansı yolda görür; sağçı da, solçu da sonda qələbə çalacağına ümidlidir...

**Azərbaycanda fəaliyyət göstərən siyasi partiyaların ideoloji-siyasi xətləri daim maraq doğurub. Bu kontekstdə siyasi fəal insanlar müxtəlif qruplara bölünüb. Partiya fəalları arasında da bu məsələ hər zaman mübahisələr yaradıb.**

Belə ki, hər bir partiya özünün ideoloji siyasi xəttini Azərbaycanın mövcud durumu üçün daha doğru hesab edir və bu xətlə uğur qazanacağına inanır. Bitərəf olan şəxslər də bəzən hansı siyasi qurumun xəttinin doğru olması ilə bağlı fikirlər səsləndirir. Reallıq ondan ibarətdir ki, indiyə qədər ölkəmizdə siyasi partiyalardan hansının siyasi xəttinin Azərbaycan üçün daha doğru olması ilə bağlı konkret nəticəyə gəlinməyib.

**Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev bildirdi ki, sağ-mərkəzçi mövqedə olan siyasi təşkilatdırlar:** "Xəttimizi bu yöndə elan etmişik. Sağ-mərkəzçiliyin daha mühafizəkar qanadının nümayəndələriyik. İdeoloji xəttimizin əsas prinsipləri ondan ibarətdir ki, Azərbaycan öz tarixi əlaqələrinə, milli adətlərinə uyğun şəkildə inkişaf etməlidir. Konkret mövqeyimiz var. Milli maraqlarımızın daim önə çəkilməsi kimi qəti mövqeyimiz hakimdir. Sağ mərkəzçiliyin tərəfdarı və təbliğatçısıyıq. Siyasi düşərgədə sağ mərkəzdə duran partiyayıq".

**AĞ Partiya başqanının birinci müavini Əhəd Məmmədli təmsilçisi olduğu qurumun ideoloji xəttini belə izah etdi:** "AĞ Partiyanın ideoloji xətti sağ-mərkəzdir, amma mühafizəkar təmayüllü sağ-mərkəzdir. Türk-İslam ənənələrinə əsaslanan dünyəvi bir partiyayıq. Dünyanın tələblərini yerinə yetirməyə hazır olan siyasi qurumuq. Partiyamız Osmanlı-Səfəvi ideologiyasını özündə ehtiva edir. Bu, həm də Osmanlı-Səfəvi barışığını Azərbaycanda özündə birləşdirir. Azərbaycanda siyasi, ideoloji boşluqlar var. Çox istərdik ki, ideologiyamız Azərbaycan və digər türk ölkələrində geniş şəkildə inkişaf etsin. Azərbaycanda əksəriyyət mühafizəkar, türk, müsəlman olsa da, bu özünü bir siyasi partiyada ehtiva etməyib. Partiyamız elə məhz bunun üçün qurulub".

**Ümid Partiyasının sədr müavini Tamilla Qulami ideologiyaları ilə bağlı bunları dedi:** "Azərbaycançılıq ideyası bizim ideologiyamızın özülünü təşkil edir. Ümid Partiyasının ideologiyası hüquqi dövlət və demokratik ənənələrə söykənir. Bu gün bizim üçün dövlət maraqları, dövlətçilik, xalq maraqları hər şeydən üstündür. Əslində 21-ci əsrdə hər hansı bir ideologiyanın arxasınca getmək heç də hər zaman uğura gətirib çıxarmaya bilər. İqtidarda olmaq istəyən, ölkə idarə etmə gücündə olan hər bir partiyanın ideologiyası bütövlükdə millətin mənafeyini, istək və arzularını ifadə edən ideyalar sistemi kimi formalaşmalı, ölkə insanını bir çətir altında birləşdirməyii bacarmalıdır. Millətçisini, kommunistini, liberalını, dinçisini və s. Partiyamız Azərbaycanın rifahlı gələcəyi üçün, daha azad, demokratik, ədalətli, hüquqi dövlət qurmaq üçün ölkəsinin hər bir vətəndaşına qucaq aça bilmə iqtidarındadır. Ümid çətirinin altında hər kəsə, hər bir Azərbaycan vətəndaşına yer var. Zaman-zaman partiya rəhbərimiz millət vəkili kürsüsündən hər zaman elə problem olmayıb ki, onu səsləndirməsin, haqqı tapdanan elə vətəndaş olmayıb ki, onu haqqını tələb etməsin. Bu gün bəlkə də ümumi olaraq desək ki, Ümid Partiyasının hər hansı bir ideologiyası yoxdur, bəlkə də anlaşılmaz qarşılana bilər. Amma bu gün apardığımız mübarizədə bizim məqsəd və məramımız azərbaycançılıq ideologiyası, hüquqi dövlət quruculuğudur. Bizim üzərimizə düşən ilk vəzifə insanları qazanmaqdır. Düzdür, ölkəni bu cür idarə edən iqtidarın sərgilədiyi yanlış siyasət nəticəsində insanları qazanmanın yolu bugünkü şərtlər çərçivəsində çox çətindir. Demək ki, daha fərqli yollar aramalıyıq. Ümid Partiyasının nizamnaməsi və daxili inamımız çevrilişsiz, inqilabsız, qansız-qadasız hakimiyyət dəyişikliyini diktə edir. Elə beynəlxalq qurumlar və mövcud yanaşmalar da demokratiyaya fazalı keçidi daha uyğun model hesab edirlər. Belə ki, Ümid Partiyasının əsas ideologiyası bütün ideologiyalara xas olan vətəndaşları bir çətir altında birləşdirərək, hüquqi dövlət qurmaqdır".



**Müsavat başqanının müavini Yadigar Sadıqov** sağ-mərkəzçi partiya olduqlarını söylədi. Başqan müavini Avropa Liberal İslahatlar Partiyasının üzvü olduqlarını da qeyd etdi.

**ADP sədrinin müavini Həsrət Rüstəmov bildirdi ki, partiya olaraq Azərbaycanda elə bir sistem qurulmasını istəyirlər ki, orada insan azadlığı hər şeydən öndə olsun:** "Ayrı-seçkiliyin ortaya qoyulduğu qrupun deyil, məhz insanın hüquqlarının öndə olmasının tərəfdarıyıq. Hazırda konstitusiyamızda bunun böyük bir hissəsi əks olunub. Təəssüflər olsun ki, hazırda hakimiyyətdə təmsil olunan partiyanın ideologiyası ilə üst-üstə düşən siyasi qurum yoxdur. Konstitusiyamız faktiki liberal dəyərlərə əsaslanır".

**VHP-nin İcra Aparatının rəhbəri Samir Əsədli hesab edir ki, siyasi partiyalar ideoloji sistem üzərində tam oturuşmayıblar:** "Hansısa bir partiyanın ideoloji xəttini elan etməsi, fikrimcə, doğru deyil. Hakimiyyətin özü siyasi partiyaların ideoloji xəttinin tam formalaşmasında maraqlı deyil. Azərbaycanda bəlli partiyalar var ki, bunlardan biri də VHP-dir. Partiyamızın sədri Sabir Rüstəmxanlı millətçi şəxsdir. Özü də millətçi fəaliyyətlə məşğuldur. Amma VHP-də solçular, millətçilər, dini əqidəsi olanlar var. Bəlkə də Azərbaycanda yeganə partiyayıq ki, VHP-nin gürcü, tat, kürd, ləzgi kimi təşkilat sədrləri var. Adımızdan hər şey görünür. Bizim irəli sürdüyümüz ideologiya vətəndaş həmrəyliyidir. Bu fəaliyyətimizdə bu özünü açıq şəkildə göstərir. Ola bilər ki, VHP-nin nizamnaməsində mərkəzçi partiya kimi yazılıb. Bir daha deyirəm ki, Azərbaycanda ideoloji kəsim üzərində heç bir partiya qurulmayıb. Hakimiyyət də siyasi qurumların öz istəklərini həyata keçirməsinə mane olur. Zamanla bu problemin aradan qalxacağına, yeni hər partiyanın öz ideoloji xəttini konkret seçəcəyinə əminəm. İnsanlar da siyasi baxışlarına görə öz seçimlərini edəcəklər".

**Nəzərə çatdıraq ki, Azərbaycanda həmçinin sol təmayüllü bir neçə xırda partiya da mövcuddur.**

❑ **Cavanşir ABBASLI**

# Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platformasının təqdimatı keçirilib

**Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının yardımı ilə Açıq Hökumətin Təşviqinə dair Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platformasının təqdimatı və Azərbaycanın Açıq Hökumət Tərəfdaşlığı (AHT) Beynəlxalq Təşəbbüsündə iştirakı ilə bağlı məlumatlandırma məqsədilə regionlarda tədbirlər keçirilir.**



Lənkəran, Sabirabad və Xaçmaz rayonlarında keçirilən tədbirlərdə yerli dövlət qurumlarının, QHT-lərin təmsilçiləri və digər ictimaiyyət nümayəndələri iştirak edib. Platformanın koordinatoru Əliməmməd Nuriyev "Azərbaycanda Açıq Hökumət Təşəbbüsünün tətbiqi: Açıq Hökumətin Təşviqinə dair Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platforması" mövzusunda məruzə ilə çıxış edərək görülən işlər, vətəndaş cəmiyyətinin bu proseslərdə iştirakı barədə ətraflı məlumat verib.

Ə. Nuriyev çıxışında 31 QHT-nin və 10 dövlət qurumunun iştirakı ilə yaradılan Açıq Hökumətin Təşviqinə dair Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platformasının missiyası və fəaliyyət istiqamətlərinə də geniş yer ayırıb. Qeyd edib ki, platformanın yaradılması Açıq Hökumət Tərəfdaşlığı Təşəbbüsündən irəli gələn islahatların həyata keçirilməsinə, bu istiqamətdə mümkün çətinliklərin dəf olunmasına, islahatlara ictimai etimadın artırılmasına əhəmiyyətli şəkildə yardım göstərməyə imkan verəcək. Eyni zamanda platforma Açıq Hökumət Tərəfdaşlığı təşəbbüsünün ideya və məqsədlərinin geniş auditoriya tərəfindən aydın, düzgün qavranılması, daha səmərli nəticələrə nail olunması üçün vacib əlverişli mühitin yaradılmasına köməklik göstərəcək.

Ə. Nuriyev həmçinin çıxışında "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illəri üçün Milli Fəaliyyət Planı"nın həyata keçirilməsinin nəticələri, AR Prezidentinin 27 aprel 2016-cı il tarixli sərəncamı ilə təsdiqlənən növbəti, "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nda nəzərdə tutulan tədbirlərdən də söz açıb.

Platformanın koordinatoru qeyd edib ki, vətəndaşların Azərbaycanda Açıq Hökumətin təşviqi ilə bağlı həyata keçirilən işlərdə fəal iştirakı mühüm əhəmiyyətə malikdir. Çünki bu səylərin hədəfi məhz vətəndaşların qərarların qəbulu prosesinə daha geniş cəlb edilməsi, onların dövlət orqanlarının fəaliyyəti barədə daha asan məlumat əldə edə bilməsi, hesabatlılıq və şəffaflığın daha yüksək səviyyədə təmin olunmasıdır.

Toplantılarda iştirakçıların sosial, iqtisadi, hüquqi mövzulara aid sualları da cavablandırılıb.

Analoji tədbirlərin Gəncə və Şəmkirdə də keçirilməsi planlaşdırılır.




# Azərbaycana gələn turistlər ASAN Xidmətdən viza ala biləcəklər

**Azərbaycana gələn turistlər artıq turizm şirkətləri vasitəsilə yox, elektron formada ASAN Xidmətdən viza ala biləcəklər. APA-nın məlumatına görə, bununla bağlı Milli Məclisin Əmək və Sosial siyasət komitəsinin dünən keçirilən iclasında "Turizm haqqında" Qanunun 7-1-ci (Turizm vizası və turistlərə verilən elektron vizalar) maddəsinin 4-cü bəndində dəyişiklik edilib.**

Dəyişikliyə əsasən, "Azərbaycan Respublikasına gələn turistlər turizm şirkətləri vasitəsilə elektron viza ala bilərlər" cümləsində, "turizm şirkətləri" sözü "siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən ölkələrin vətəndaşları və ya həmin ölkələrdə daimi yaşayan vətəndaşlığı olmayan şəxslər olduqda, "ASAN Viza" sistemi" sözləri ilə əvəz edilir.

Maddə 7-1.5-ə edilən dəyişikliyə əsasən isə elektron viza almaq üçün əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər "ASAN Viza" sistemində yerləşdirilmiş elektron müraciət formasında nəzərdə tutulan məlumatları sistemə daxil etməli, müraciətin qəbul olunması barədə müvafiq təsdiqnamə aldıqdan sonra "Dövlət rüsumu haqqında" Qanunla müəyyən edilmiş məbləğdə dövlət rüsumunu elektron qaydada ödəməlidirlər.

Elektron vizanın verilməsi ilə bağlı müraciətə ən geci 3 iş günü müddətində baxılır, imtina üçün əsas olmadıqda, viza rəsmiləşdirilərək müraciət etmiş şəxsin elektron poçt ünvanına göndərilir. Viza verilməsindən imtina edildikdə, müraciət etmiş şəxsin elektron poçt ünvanına bu barədə məlumat göndərilir.

Layihə Milli Məclisin plenar iclasına tövsiyə olunub.

YENİ MÜSAVAT
N 255 (6576) 17 noyabr 2016

# Hal şahidlərinin iştirakının məcburiliyi aradan qaldırılır

**Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin noyabrın 16-da keçirilən iclasında "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsinə təklif olunan dəyişikliklər müzakirəyə çıxarılıb.**

"Report"un xəbərinə görə, komitə sədri Əli Hüseynli bildirib ki, dəyişikliklər prezident İlham Əliyev tərəfindən parlamentə daxil olub: "Zaman-zaman həm cinayət təqibinin sadələşdirilməsi, həm də cinayət mühakimə icraatının tezliyinin təmin olunması ilə bağlı məsələlər qaldırılır. Bu gün müzakirəyə çıxarılan layihə də bu kimi məsələlərin həllinə yönəlib. Yeni layihəyə əsasən, istintaq hərəkətləri zamanı videoçəkilişdən istifadə edildiyi halda hal şahidlərinin iştirakının məcburiliyi aradan qaldırılacaq. Burada hal şahidlərinin iştirakının yalnız məcburiliyi aradan qaldırılır, amma hal şahidlərinin iştirakı həm də mümkündür. Digər tərəfdən, apelyasiya baxışının təyin olunması barədə ilkin qərardan kasasiya şikayətinin verilməsi prosesinin məhdudlaşdırılmasına dair təkliflər irəli sürülüb. Əslində ilkin qərardan şikayətin verilməsi cinayət mühakiməsinin bəzən aylarla uzadılmasına gətirib çıxarır. Bu dəyişikliyin edilməsi cinayət təqibinin sadələşdirilməsi və cinayət mühakiməsi prosedurunun tezləşdirilməsi üçün vacibdir".

**Milli Məclisin deputatı Qüdrət Həsənquliyev dəyişikliklərlə bağlı bəzi məsələlərin ona qaranlıq qaldığını deyib:** "Azərbaycanda cinayət təqibi zamanı belə problemlər ortaya çıxır ki, guya əməliyyat aparan orqanlar özləri müəyyən maddi sübutları hadisə yerinə qoyurlar, sonra onu oradan götürürlər. Hətta bəzi hallarda hal şahidlərini də ittiham edirlər. İndi hal şahidi olmadan da çəkiliş aparılsa, bu halda məhkəmə baxışı zamanı daha ciddi suallar ortaya çıxacaq və əməliyyat çəkilişinin obyektivliyi şübhə altına alınacaq. Bunun ədalət məhkəməsini şübhə altına alan bir məqam olacağını düşünürəm. Bu dəyişikliyi etmək bəlkə də tezdir".

Qeyd edək ki, mövcud qanunvericiliyə görə, axtarış və ya götürmə zamanı azı iki hal şahidi iştirak etmədikdə videoçəkilişdən istifadə məcburidir. Şəxsi axtarış və götürmə zamanı videoçəkilişdən istifadə edilmədikdə barəsində şəxsi axtarış və götürmə aparılan şəxslə eyni cinsdən olan azı iki hal şahidinin iştirakı mütləqdir.

Məcəlləyə müxtəlif təyinatlı digər dəyişikliklər də təklif olunur.



# Quba sakini naməlum şəxs tərəfindən öldürülüb



**Quba rayonunda 37 yaşlı kişi naməlum şəxs tərəfindən bıçaqla qətlə yetirilib. "Report"un Şimal bürosunun məlumatına görə, hadisə rayonun Barlı kəndində baş verib.**

Belə ki, həmin kəndin sakini, 37 yaşlı Ramiz Əhməd oğlu Məmmədov bıçaqlanıb. Yaralı Xaçmaz Rayon Mərkəzi Xəstəxanasına yerləşdirilib. Xəstəxananın baş həkimi Səyyaf Tağıyev "Report"un Şimal bürosuna bildirib ki, əməliyyat olunan R.Məmmədovun həyatını xilas etmək mümkün olmayıb: "Bu gün səhər saatlarında rayon sakini Ramiz Məmmədov yaralı vəziyyətdə xəstəxanaya gətirilib. Ona qarının ön divarının kəsilmiş-deşilmiş yaraları diaqnozu qoyulub və əməliyyat edilib. Lakin əməliyyatdan sonra o, xəstəxanada ölüb".

Quba Rayon Prokurorluğundan bildirilib ki, hazırda hadisə yerində araşdırma aparılır.

# Qanunsuz odlu silah və narkotik satanlar saxlanıldı

**Daxili işlər orqanı əməkdaşları cinayətkarlıqla mübarizə sahəsində növbəti əməliyyat nəticəsində odlu silah-sursatın və külli miqdarda narkotik vasitələrin qanunsuz alqı-satqısı ilə məşğul olan cinayətkar dəstənin üzvlərini zərərsizləşdiriblər.**

ARB TV xəbər verir ki, Zəngilan Rayon Polis Şöbəsinə Şirvan şəhər sakinləri Cabbar Umudov və Kamil Cəfərovda külli miqdarda narkotik vasitə olması barədə əməliyyat məlumatı daxil olub.

Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi və Zəngilan Rayon Polis Şöbəsi əməkdaşlarının birgə həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində əvvəllər məhkum olunmuş hər iki şəxs 1 kiloqram çəkidə narkotik vasitə olan heroini 10000 manata satmaq istəyən zaman saxlanılıblar.

Fakt üzrə cinayət işi açılıb, araşdırmalar davam etdirilir.

## Elan

**Abşeron rayonu, Saray qəsəbəsindən Fərəcov Sərdar Həsənqulu oğlu, Fərəcova Validə Salamat qızı, Fərəcova Fərid Sərdar oğlu, Fərəcova Sahilə Sərdar qızının adına olan Daşınmaz Əmlakın Dövlət Reyestrindən çıxarış sənədi itdiyi üçün etibarsız sayılır.**




# Masallıda torpaq qalmaqalında adı hallanan sabiq bələdiyyə sədri danışdı

## Vətəndaş bələdiyyə sədri tərəfindən torpağının satın alındığını deyir, qarşı tərəf təkzib edir

**Ötən saylarımızda "Masallıda bələdiyyə sədri vətəndaşın torpağını satıb" başlıqlı yazı dərc olunmuşdu. Redaksiyamıza müraciət edən rayonun Gəyəçöl kənd sakini Şəhla Əliyeva onun icazəsi olmadan kənd bələdiyyə sədrinin həyətyanı sahəsini satın almasından şikayətlənib. Ş.Əliyevanın sözlərinə görə, buna qarşı öz etirazını bildirdiyi üçün daim təzyiq və təhdidlərlə üz-üzə qalıb, bu səbəbdən bir neçə dəfə intihar etmək istəyib.**

Məsələ ilə bağlı qarşı tərəfin də cavabı gecikməyib. Yazıda adıçəkilən Masallı rayonu Gəyəçöl kənd sakini, sabiq bələdiyyə sədri Bəybala Əsədov redaksiyamıza məktub vasitəsilə müraciət edərək bildirib ki, məlum hadisəyə heç bir aidiyyəti yoxdur: "Hadisə mənim bələdiyyə sədri işlədiyim dövrdə olmayıb. Təsərrüfatı ayrı olan kənd bələdiyyəsinin yeni sədri seçilən gəlinim olsa da, məndən ayrı yaşayır, bu hadisəyə heç bir dəxli yoxdur. 6 aydır bələdiyyə seçilib, əvvəlki dövrdə baş verən torpaq alqı-satqısında iştirakı olmayıb. Mən isə 2013-cü il mart ayının 12-də bələdiyyə seçilmişəm. Məqalədə adıçəkilən münaqişəli hadisə 2012-ci ilə aiddir.

Adıçəkilən ərazi nümayəndəsi Afərin Şükürov da vəzifəyə çox sonralar - 2014-cü il 22 oktyabrda təyin olunub.

Gəyəçöl kənd sakini Şəhla Əliyeva anası ilə konfliktdə olduğu üçün neqativ yollara əl atır, aidiyyəti olmayan şəxslərin adını hallandırır, faktlar olmadan müxtəlif ünvanlara şər və böhtanlarla dolu müraciətlər edir ki, bu müraciətlərin bir hissəsi sizin redaksiyanıza daxil olub. Hazırda bu konfliktə görə Şəhlanın özü ilə anası arasında münaqişə olub, ana evi tərk etmək məcburiyyətində qalıb".

❑ **Xalidə GƏRAY**

## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri**, keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarn dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

DİQQƏT! 2011-ci ildən bütün Beynəlxalq Bal Sərgilərinin qalibi "Darı Tyan Şana" (Qırğızıstan) şirkətinin bal və müalicəvi bal məhsulları Bakıda!

***Atbaşı balı (Ağ bal)***
***Esparset balı (monoflor)***
***İssık kul balı***
***Karkıra balı***
***Uzqen balı***
***Mumiya***
***Oqnyovka pçelinaya***
***Propolis məcunu və s.***

Şirkətin məhsulları yarmarka və bazarlarda satılmır.
Məhsulları bu ünvandan ala bilərsiniz:
Neftçi Qurban küçəsi-119. (Bayıl Doğum evinin yanı)
**Əlaqə telefonu: (012) 49123-82; (051) 922-15-71**

## Təbib Darya xanım

Onurğa yırtığı, osteoxandroz, sağalmaz yaralar, yanıqlar, uzun müddət yataqdan sonra əmələ gələn yaralar, diabetdə trafik xoralar, varikoz genişlənmələr, qadın sonsuzluğunun zəli ilə müalicəsi və digər xəstəlikləri cərrahi müdaxiləsiz, xüsusi məlhəmlərlə və xüsusi metodika ilə inyeksiyalarla müalicə edirəm.

**Tel: 070-888-91-50**

# Evdə təhsil sistemi... Azərbaycanda da mümkünmü?

## Təhsil ekspertləri məsələyə ehtiyatlı yanaşmanın tərəfdarıdır



**Valideyn uşağının adını məktəbə yazdırır, müəllimlər isə gəlib evdə dərs keçir. Beləcə, uşaq yorulmur və əlavə dərnəklərə də vaxt ayıra bilir. Bu sistem dünyanın bir çox ölkələrində, o cümlədən qonşu Rusiyada mövcuddur.**

Rusiyada valideynin istəyi ilə uşaq məktəbə yalnız imtahan vermək üçün gedir. Onun bilik səviyyəsi isə sinifdə dərs keçən uşaqlardan qat-qat yuxarı olur. Sərbəst qrafiklə keçirilən bu dərslərdə uşaq yorulmur, hətta əlavə dərnəklərə də gedə bilir. Azərbaycanda isə bu cür ev təhsili yalnız fiziki qüsurlu uşaqlara tətbiq edilir. Evdə təhsili yalnız somatik, nevroloji, cərrahi, dəri, psixonevroloji xəstəlikləri olan uşaqlar ala bilər.

Hər kəsə məlumdur ki, hazırkı dərs proqramının ağırlığı, fənlərin çoxluğu uşaqların yorğunluğuna, əlavə məşğuliyyətlərə vaxt tapa bilməməsinə və zehninin zəifləməsinə səbəb olur. Uşaqların dərs yükünü azaltmaq üçün bir çox dünya ölkələrinin istifadə etdiyi bu praktikadan Azərbaycanda da istifadə etmək mümkün ola bilərmi? Əgər bu sistem ölkəmizdə tətbiq edilsə, bunun hansı müsbət nəticələri ola bilər?

**"XXI əsr" Təhsil Mərkəzinin rəhbəri, təhsil eksperti Etibar Əliyev sinifdə uşaqların sayının 15-20 nəfərdən ibarət olması istiqamətində ciddi işlər aparıldığını dedi:** "Azərbaycanda Rusiyadakı kimi ev şəraitində təhsil təhsildən kütləvi şəkildə yayınmaya səbəb ola bilər. Yəni hər bir ölkənin təhsil sistemi öz spesifikliyi ilə fərqlənir. Bütün dünyada şagirdlərin daha az sayda komplektləşdirilməsi yönündə ciddi addımlar atılır. Təhsili inkişaf etmiş ölkələrdə bu mümkündür. Komplektləşdirmə 10-15 nəfər şagirddən ibarət olaraq aparılır. Bu da fərdi təhsilə yaxınlaşmanı ehtiva edir. Əlbəttə ki, ola bilsin hansısa valideynin imkanları yüksəkdir və o, övladını fərdi də hazırlaşdırır. Heç kim inkar etmir ki, fərdi hazırlıq üstünlük təşkil edir. Zaman baxımından da, müəllimin məsuliyyətli yanaşması baxımından da fərdi təhsil qrup halında təhsili üstələyir. Ancaq bizim təhsil sistemində bu mümkün deyil. Yaxşı olar ki, konkretləşdirmədə rasional addımlar atılsın. Yəni uşaqların sayı siniflərdə azalsın. Bu, təhsilin keyfiyyətinə yüksək təsir göstərə bilər. Onsuz da indiki şəraitdə yuxarı sinif şagirdlərinin dərsdən yayınma halları çoxdur. Yəni onlar evdə fərdi hazırlıqlara gedirlər. Əgər evdə fərdi hazırlıq sistemi də bizdə tətbiq olunsa, uşaqların məktəbdən daha çox ayrılmasına səbəb ola bilər. Hər halda, dünyada uşaqların təfəkkürünün inkişafında məktəbdən güclü sosiallaşma məkanı hələlik müəyyənləşdirilməyib".

**Təhsil eksperti Kamran Əsədov isə ev şəraitində təhsilin uşaqları cəmiyyətdən təcrid etdiyini dedi:** "Hesab edirəm ki, ev şəraitində təhsil uşaqları cəmiyyətdən təcrid edir. Apardığım araşdırmalara əsaslanaraq deyə bilərəm ki, təhsilə cəlb olunan əlil uşaqların böyük əksəriyyəti evlərində təhsil alırlar. Lakin fikrimcə, evdə təhsil almaq üsulu müasir dövrdə səlar olduğu üçün fiziki qüsurlu insanların infrastruktur baxımından problemləri var. Onların hərəkəti üçün lazımı şərait yaradılmır və nəqliyyatdan rahat istifadə edə bilmirlər. Burada kompleks təminetmə olmalıdır. Həm infrastruktur, həm də qanunvericilik düzgün qurulmalıdır. Onların cəmiyyətə inteqrasiyası üçün əsas məsələlərdən biri isə valideynlərin maarifləndirilməsidir. Bizdə digər ölkələrdən fərqli olaraq, valideynlər fiziki çatışmazlığı olan övladlarını cəmiyyətdən təcrid olunmuş halda böyüdür və ondan utanırlar. Halbuki bu onların özlərinə ilk növbədə ziyandır".

**K.Əsədov bu sahədə ciddi problemlər olduğunu bildirdi:** "Azərbaycanda təhsil üzrə statistik göstəricilər üzrə Dövlət İmtahan Komissiyasının (DİM) keçirdiyi imtahan nəticələri əsasında firmalaşır. Lakin ortaya çıxan nəticələr evdə təhsil alan şəxslərin nəticələrinin yüksək olmadığını göstərir. Bundan başqa, xüsusi təyinatlı və evdə təhsil alan şəxslərin sayı ilə onların istər ali məktəblərə qəbulu, istərsə də peşə məktəblərinə qəbulu arasında ciddi fərqlər onu göstərir ki, bu sahədə ciddi problemlər var və islahatlara ehtiyac var". (mərəli deyil. Burada əsas məsələ onların cəmiyyətə inteqrasiya olunmasıdır, bunun üçün də əlil uşaqlar öz həmyaşıdları ilə birlikdə təhsil almalı və ünsiyyətə girməlidirlər. Bundan əlavə, qanunvericilikdə boşluq-)

❑ Günel MANAFLI

# Xəzərdə və digər su hövzələrində balıq niyə yoxa çıxıb?

## Ekspertlər müxtəlif səbəblər göstərir; "Brakonyerlər balıqların qarşısını torlarla, gəmilərlə kəsirlər, sahilə gəlməyə qoymurlar"

**Son zamanlar Xəzər dənizinin Bakı ərazisinə düşən sahillərində balıq tutmaq müşkülə çevrilib. Bu barədə "Yeni Müsavat"a məlumat verən balıqçılar bildiriblər ki, iki aydan çoxdur balıq üzünə həsrətdirlər. Onların sözlərinə görə, buna səbəb dənizin həddindən artıq ekoloji çirklənməyə məruz qalmasıdır. Bunun nəticəsində peşəkar balıqçılar belə dənizdən balıq tuta bilmirlər.**




Balıqların Bakının sahilboyu ərazilərindən uzaqlaşmasının daha bir səbəbi kimi müxtəlif neft kooperasiyalarının dənizdə apardıqları təcrübələr, süni partlayışlar da əsas gətirilir. Belə ki, partlayış nəticəsində həm də dənizin suyunda çirklənmə yaranır və bu hal da balıqların suyun dərinliklərinə doğru getməsi ilə nəticələnir.

Bəzi iddialara görə, sentyabr ayında "BP-Azərbaycan" şirkəti Bakı-Salyan şossesinin 5-50-ci kilometrliyində Xəzər dənizinin sahil boyu ərazilərində neft hasilatı prosesi ilə bağlı xüsusi kəşfiyyat partlayışları həyata keçiriblər. Partlayışın təsirindən sahilboyu ərazilərdəki balıqlar suyun dərinliklərinə çəkiliblər. İddia olunur ki, şirkət dənizdə ara-sıra bu cür tədqiqatlar həyata keçirir. Hər tədqiqat sonrası isə bir neçə ay dənizdə balıqlar gözə dəymir.

Bütün bunlar ölkədə balıq məhsullarının da kəskin şəkildə azalmasına səbəb olub. Təsadüfi deyil ki, ölkədə balıq məhsullarının qiymətində də son zamanlar artım müşahidə olunur.

Məsələ ilə bağlı "BP-Azərbaycan" şirkətinin ictimaiyyətlə əlaqələr şöbəsinə sorğu ünvanladıq. Şirkətdən sorğumuza cavab olaraq aşağıdakılar bildirildi:

"Sorğunuza cavab olaraq bildiririk ki, "BP Azərbaycan" şirkəti Bakı-Salyan şossesinin 5-ci kilometrliyindən 50-ci kilometrə qədər olan sahil boyu, yaxud da sahilə yaxın ərazilərdə, dənizdə, heç bir axtarış-kəşfiyyat işi və digər tədqiqat aparmır".

Onu da qeyd edək ki, təkcə Xəzərdə deyil, son illərdə ölkə boyunca əksər su hövzələrində - kanallarda, göllərdə də balıq azalıb. Bunun səbəblərinə gəlincə, balıqlara bir növ genosid edilməsidir. Belə ki, əksər kanallara, göllərə torlar qurulur, hətta bir çox su hövzələrində brakonyerlər elektrik cərəyanı, zəhərli maddələr atmaqla balıqların və digər su heyvanlarının kökünü kəsirlər. Buna ciddi nəzarət edilməsi zərurətə çevrilib.

**Məsələ ilə bağlı ekoloq Telman Zeynalov "Yeni Müsavat"a bildirib ki, əslində Xəzərdə balığın olmamasının səbəbi başqadır:** "Son dövrlər Xəzər dənizi bir o qədər də çirkləndirilmir. İkincisi də nərə və digər balıqların nəsli artıq tükənir. Çünki biz dənizə balıq yetişdirib buraxmırıq. Daha çox Rusiya, Qazaxıstan və İran yetişdirir. Əsas məsələ də budur. Gərək birinci si bəsləyəsən, sonra da ovlayasan. Neft istehsalı ilə məşğul olan şirkətlərə gəlincə isə deyə bilərəm ki, artıq bütün bunlar da düşünülür. Son zamanlar tətbiq olunan müasir texnologiya sayəsində Xəzər dənizi elə də çirkləndirilmir. Sovetin dövründə belə bir hallar müşahidə olunurdu. O zamanlar çirklənmə var idi. İndi isə müstəqil dövlətik. Kim istəyər ki, öz gəlirindən əl çəksin. Hazırda məlumdur ki, dəniz də müxtəlif məmurlar arasında bölüşdürülüb, hasarlanıb. Əgər oradan pul qazanırlarsa, hansı məmur istəyər ki, pulunu çölə atsın? Bu səbəbdən neft hasilatında tətbiq edilən üsullara, çirklənmə səviyyəsinə onlar da nəzarət edirlər. Həvəskar balıqçılar təbii ki, şikayətlənə bilərlər. Çünki brakonyerlər balıqların qarşısını gəmilərlə, torlarla, digər qurğularla kəsirlər, heç qoymurlar ki, balıq sahilə gəlsin".

❑ Əli RAİS

## Yağış yağacaq, duman olacaq...

**Noyabrın 17-də Bakıda və Abşeron yarımadasında, eləcə də respublikanın bölgələrində gözlənilən hava şəraiti açıqlanıb.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən "Report"a verilən məlumata görə, sabah Bakıda və Abşeron yarımadasında arabir yağış yağacağı gözlənilir.

Mülayim şimal-şərq küləyi axşam arabir güclənən şimal-qərb küləyi ilə əvəz olunacaq.

Havanın temperaturu gecə 7-9° isti, gündüz 10-13° isti olacağı gözlənilir. Bakıda gecə 7-9° isti, gündüz 10-12° isti olacağı gözlənilir.

Atmosfer təzyiqi 760 mm civə sütunundan 764 mm civə sütununa yüksələcək. Nisbi rütubət 85-95 % təşkil edəcək.

Azərbaycanın rayonlarında sabah arabir yağış yağacağı, duman olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, dağlıq və dağətəyi rayonlarda sulu qara, qara keçəcəyi ehtimalı var. Gündüz qərb rayonlarında yağıntı tədricən kəsiləcək. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 4-8° isti, gündüz 8-13° isti, dağlarda gecə 3° şaxtadan 2°-dək isti, gündüz 4-8° isti olacağı gözlənilir.



YENİ MÜSAVAT

Son səhifə

N 255 (6576) 17 noyabr 2016



# Qorxu filminə baxmaq yarım saatlıq qaçışda itirilən kaloriyə bərabərdir

Florida və Berkli universitetlərinin psixoloqları qorxulu film həvəskarları ilə bağlı yeni fikirlər irəli sürüblər. Onların fikrincə, qorxulu filmlərə baxarkən məmnun olan adamlar özlərini bədbəxt hiss etməyi xoşlayırlar. Belə adamların sadəcə qorxmaqdan xoşları gəlir. Xüsusilə də filmin ən dəhşətli məqamları onlara zövq verir. Onlar dəhşətli filmlərə baxmağı sevməyən adamlardan çox fərqlənirlər.

Vaşinqton alimlərinin apardıqları təcrübələr nəticəsində isə məlum olub ki, zorakılıq və dəhşət görüntüləri ilə zəngin filmlər insanlara güclü təsir edir. Döyüş səhnələri ilə dolu olan filmin təsirindən isə qanda antitellər, hormonlar artır. Əslində antitellər təhlükə ilə mübarizə aparmalıdır. Lakin insan filmə baxmaqdan ayrılmaq istəmədiyi üçün orqanizmindəki dəyişikliyə əhəmiyyət vermir və antitellər orqanizmin daxilində təhlükə axtarmağa başlayır və onlara qarşı mübarizəyə qalxır. Adətən dəhşət filmlərində də belə olur.

Londondakı (Britaniya) Vestminister Universitetinin alimlərinin araşdırmalarına əsasən, 90 dəqiqəlik qorxu filmlərinin insan orqanizminə təsiri yarım saat qaçarkən itirilən kaloriyə bərabərdir. Təcrübələr nəticəsində məlum olub ki, qorxulu filmlər insan çəkisinə təsir edir. Belə ki, ani qorxu hissi orqanizmdə adrenalinin artmasına səbəb olur.

# Qızına 74 milyon dollarlıq toy etdi



Hindistanın Karnataka ştatının keçmiş naziri öz qızına dəyəri 74 milyon dollara çatan bir toy mərasimi təşkil edib. Bu barədə "Daily Mail" qəzeti xəbər verib. 43 yaşlı Qali Canardhana Reddi səkkiz "Bollivud" rejissoru tutub və onlar mərasimin təşkilatı ilə məşğul olublar. Dəvətnamələrin üstünə qızıl tozu səpilib. Tədbir düz 5 gün boyunca davam edib. Qonaqları yerli tanınmışlar əyləndiriblər. Toy zamanı nümayiş etdirilən rolikdən də bəlli olur ki, gəlin məşhur dizaynerlərə aid beş geyim dəyişir. Bəyi isə beş ağ at əhatə edir. Gəlinin valideynləri də fonoqrama ilə mərasim üçün xüsusi hazırlanmış mahnı ifa ediblər. Qəzetin xəbərinə görə, hindli qızın geyimi 2.5 milyon dollar təşkil edib. Onun zinət əşyaları isə 12.4 milyon dollar olub. Reddi Hindistanın ən varlı siyasətçilərindən sayılır. 2004-cü ildə o, Karnatakada dəmir yataqlarındakı qiymətli əşyaları əldə etmək üçün lisenziya alıb.

# Mişel Obamanı təhqir etdiyi üçün istefa verdi

Qərbi Virciniya ştatındakı Kley şəhərinin meri qəribə bir səbəbə görə işdən çıxıb. Belə ki, o, facebookda birinci ledi Mişel Obamanın kabluk geyinən meymunla müqayisə edildiyi statusa pozitiv rəy yazdığı üçün işini itirib. Beverli Uoylinq adlı mer Pamerla Teylor adlı bir təşkilat rəhbərinin yeni birinci ledi Melani (yeni prezident Donald Trampın xanımı-red.) ilə Mişel Obamanı (sabiq prezident Barak Obamanın xanımı-red.) müqayisə edərək üstünlüyü birinciyə verdiyi və "dikdabanlı meymunu orda görməkdən məmnun deyiləm" yazdığı statusu bəyənib. Onun bu fikrinə qatılaraq, belə düşündüyünə sevindiyini deyib. Sosial şəbəkə istifadəçiləri isə onların hər ikisini rasizmdə ittiham ediblər və istefa vermələrini tələb ediblər. Nəticədə hər ikisi istefa ərizəsini yazıb. Mişel Obama Amerikanın tarixində ilk afroamerikan mənsubiyyəti olan birinci ledidir. Əri Barak keniyalı tələbə və ağ amerikalı qadının övladıdır. Mişelin əcdadları isə ondan fərqli olaraq zənci qullardır.






# Kök uşaq sağlam uşaq deyil

Amerikalı mütəxəssislər bildiriblər ki, dünyada kök, piylənməyə mübtəla olmuş uşaqların sayı artıb. Boston Universitetinin professoru Elsi Taveras bunun səbəblərini böyük qida porsiyaları, balanslaşdırılmamış rasion, fiziki fəallığın yetərincə olmaması, yanlış yuxu rejimi və valideynlərin gərəkli səviyyədə məlumatlandırılmaması ilə əlaqələndirir. Ekspertlər deyirlər ki, çoxlarının şüurundakı "kök uşaq sağlam uşaqdır" anlayışı da yanlışdır.

"Valideynlər bilməlidirlər ki, uşağın erkən yaşlarında izafi çəkili olması problemdir. Lakin uşaqlar eynən böyüklər kimi arıqlamamalıdırlar, çünki uşaqlarla böyüklərin orqanizmləri fərqlidir", - Taveras deyir. Uşaq izafi çəkili olarsa, problemi erkən yaşlardan həll etməyə başlamalı və "yeniyetmə dəyişiklikləri"ni gözləməmək gərəkdir.




**QOÇ** - Başınızdakı yeni ideyaları reallaşdırmağı bacarsanız, uğurlarınız daha da yaxınlaşacaq. Yeganə narahatçılığınız səhhətlə bağlı ola bilər. Büdcənizi boş məsrəflərə xərcləməyin.

**BUĞA** - Günün ümumi mənzərəsi gərgin olsa da, bunun qarşısını ala bilərsiniz. İlk növbədə səbr nümayiş etdirin. Nahardan sonra isə yalnız istirahət və gəzintilərə meyl edin.

**ƏKİZLƏR** - Hərdəmxəyallığa mübtəla olmaqdansa, hazırkı tərəddüdlü durumdan sizi çıxara biləcək adamların yanında olun. Belə adamlar var. Elə isə hərəkətə keçin. Bu gün pul da gözlənilir.

**XƏRÇƏNG** - Bəxtinizə fəaliyyət və yeni əlaqələr üçün ən uğurlu məqamlar düşəcək. Odur ki, mövcud potensialınızdan maksimum bəhrələnin. Müqəddəs yerləri ziyarət etmək yaxşı olardı.

**ŞİR** - Məqsədlərinizi həyata keçirməkdə bəzi maneələrlə üzləşsəniz də, günün ümumi mənzərəsi istəyinizə uyğun tərzdə canlanacaq. Büdcənizdə artım da mümkündür, amma səhhətinizi qorumalısınız.

**QIZ** - Şəxsi işlərinizdə böyük dönüş gözlənilir. Qarşıda duran yarım ay ərzində görəcəyiniz işləri reallığa yaxınlaşdırmaq üçün müttəfiqlərinizlə əlaqələri dərinləşdirməlisiniz.

**TƏRƏZİ** - Düşünməyin ki, iştirakçısı olduğunuz proseslər neqativliyə gedir, əksinə yaxın vaxtlarda bunun bəhrəsini mütləq görəcəksiniz. Günün ikinci yarısını bütünlüklə sevgiyə həsr edin.

**ƏQRƏB** - Gələcək perspektivlərinizi reallaşdırmaq istiqamətində tənbəllik edirsiniz. Belə ki, sizə lazım olan bütün gedişləri bildiyiniz halda fəaliyyət göstərmirsiniz. Əzmkarlığınızı artırın.

**OXATAN** - Özünüzü mübahisəli situasiyalara atmayın. Bacardığınız qədər obyektiv və səbrli olun. İndiki çətin məqamda son sözü əvvəldə demək zərərlidir. Təcrübəli insanların yardımına ehtiyacınız var.

**OĞLAQ** - Səhər saatlarında qeyri-ciddi adamların xoşagəlməz rəftarı ilə üzləşə bilərsiniz. Çalışın ki, belə amillər ovqatınızı korlamasın. Nahardan sonra səfərə çıxmağa dəyər.

**SUTÖKƏN** - Ağlınız kəsməyən şəxslərlə görüşlərdən yayının, aldana bilərsiniz. Ümumiyyətlə bu gün risklərə getməməli, yalnız sınaqlardan çıxmış dostlarınızla bir yerdə olmalısınız.

**BALIQLAR** - Məxfi danışıqlar aparmaq, gizli planları tədricən həyata keçirmək üçün səmərəli vaxtdır. Amma gərək bütün bunlar xeyirxah müstəvidə cərəyan etsin. Sənədlərlə bağlı diqqətli olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Xərçəngəm dedi, hamını aldatdı

Amerikada 34 yaşlı Castin adlı bir mağaza satıcısı yaxın qohumlarının və iş yoldaşlarını 1 il boyunca aldadıb. Castin xərçəng xəstəliyinə tutulduğunu deyərək, onların xeyli miqdarda pulunu mənimsəyib. Rusiya mətbuatının xəbərinə görə, xəstə adı ilə Castin qohumlarından 94 min dollar pul alıb, iş yoldaşları günlərlə onu işdə əvəz edib. O isə həmin müddətdə qohumlarının verdiyi pullarla əylənib, səyahətə çıxıb. Castin hər dəfə çıxdığı səyahəti "kimyaterapiya", "müalicə kursu" adı ilə təqdim edib. 34 yaşlı satıcı hazırda həbs olunub və onu ciddi cəza gözləyir.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 4.750